QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*



*"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir*

№ 190 (5421) 19 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycanda sərhəd xidmətinin inkişafına çox böyük diqqət yetirilir"

## *Prezident İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasının iştirakçılarını qəbul edib*

Səh 2



8

**Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunub, hərbi parad keçirilib**



6

**Azərbaycan ilə Polşa arasında yüksək səviyyəli siyasi əlaqələr var**



16

**Neymar "Qızıl top" mükafatını qazansa, PSJ ona 3 milyon avro ödəyəcək**



# "Azərbaycanda sərhəd xidmətinin inkişafına çox böyük diqqət yetirilir"

## *Prezident İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasının iştirakçılarını qəbul edib*





***Oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanları Şurasının Bakıda keçiriləcək 78-ci iclasının iştirakçılarını qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşün iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:***

-Xoş gəlmisiniz. Sizi Azərbaycanda salamlamağa məmnunam. Şadam ki, MDB ölkələrinin sərhəd xidmətləri rəhbərlərinin iclası bizim ölkəmizdə keçirilir. Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsi birinci dəfə deyil. Biz sizinlə görüşmüşük, ola bilsin ki, tamamilə indiki tərkibdə olmayıb, amma sizin çoxunuz artıq bizim ölkəmizdə olub. Bu, çox yaxşı tədbirdir. Bu, təkcə sərhəd xidmətlərinin rəhbərləri arasında deyil, həm də ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirir.

Bu yaxınlarda Soçidə MDB-nin növbəti sammiti keçirildi. Azərbaycan həmin tədbirdə fəal iştirak etdi. Ümumiyyətlə, biz MDB məkanında bir çox mühüm işlərdə fəal iştirak edirik. Əlbəttə, təhlükəsizliyin, sərhədlərin qorunmasının möhkəmləndirilməsi bizim bütün ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizin və xalqlarımızın təhlükəsizliyinin əsasıdır. Bizim vətəndaşların normal, rahat həyatı da çox cəhətdən sizin rəhbərlik etdiyiniz xidmətlərin uğurlu fəaliyyətindən asılıdır. Buna görə də heç şübhəsiz, bizim ölkələrimizin rahat, normal, sabit inkişafı da sizin aranızda əməkdaşlıqdan, informasiya mübadiləsindən, qarşılıqlı fəaliyyətdən asılıdır.

Azərbaycanda sərhəd xidmətinin infrastrukturunun, bütövlükdə sərhəd xidmətinin inkişafına çox böyük diqqət yetirilir. Son illərdə sərhədlərin möhkəmləndirilməsi, müasir avadanlıqla təchizatı sahəsində çox iş görülüb. Hesab edirəm ki, bu sahə təhlükəsizliyin möhkəmləndirilməsi işində mühüm sahələrdən biridir.

Təəssüf ki, bizim ölkələrimizin yerləşdiyi regionlarda, bütövlükdə dünyada risklər artır. Buna görə, əlbəttə ki, səylərin əlaqələndirilməsi, informasiya mübadiləsi və təhlükəli hallara qarşı birgə mübarizə bizim təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda vəziyyət sabitdir, ölkə uğurla inkişaf edir, daxili risklər və potensial təhlükələr yoxdur. Buna görə, əlbəttə, biz əlimizdən gələni etməliyik ki, təhlükəli elementlər bizim sərhədlərdən keçməsin. Biz bunu, əlbəttə, öz qonşularımızla, MDB ölkələri ilə əlaqələndirilmiş şəkildə təmin edirik.

Əlbəttə ki, beynəlxalq terrorizmə qarşı mübarizə məsələləri bugünkü gündəlikdə başlıca yer tutur. Bu gün praktiki olaraq bütün beynəlxalq sammitlərdə ekstremizmə, mütəşəkkil cinayətkarlığa, narkotrafikə qarşı mübarizə ən aktual mövzulardır. Təbii ki, bizim ölkələrimiz bütün bu müasir təhdidlərə və təhlükələrə adekvat şəkildə cavab verməlidir. Mən şadam ki, bütövlükdə MDB məkanında vəziyyət kifayət qədər sabitdir.

**Ardı Səh. 3**

# "Azərbaycanda sərhəd xidmətinin inkişafına çox böyük diqqət yetirilir"

## *Prezident İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasının iştirakçılarını qəbul edib*

**Əvvəli-Səh-2**

Xüsusilə bugünkü dünyada bir sıra regionlarda çox həyəcanlı proseslər - sabitliyin pozulması, daxili münaqişələr, müharibələr, qanlı toqquşmalar getdiyi vaxtda biz əlbəttə ki, öz ölkələrimizin təhlükəsizliyini möhkəmləndirməliyik və ölkələrimiz arasında, o cümlədən sizin başçılıq etdiyiniz sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə təkan verməliyik.

Mən əminəm ki, Komandanlar Şurasının iclası yüksək səviyyədə keçiriləcək və müzakirə olunacaq məsələlər ölkələrimizin təhlükəsizliyinin daha da möhkəmlənməsinə, sərhədlərin qorunmasının möhkəmlənməsinə gətirib çıxaracaq. Hamımız sərhədlərimizin bizə ziyan vurmaq istəyənlərdən etibarlı müdafiə olunmasında, eyni zamanda, dostlarımız, turistlər, iş adamları, ölkələrimizlə tanış olmağa gələnlər üçün açıq olmasında maraqlıyıq. Belə bir tarazlığı tapmaq asan deyil. Biz Azərbaycanda buna cəhd edirik və bizim bir çox ölkələrlə həyata keçirdiyimiz viza rejiminin liberallaşdırılması və bir çox ölkələrdən əcnəbi vətəndaşların Azərbaycana kifayət qədər sərbəst gələ bilməsi, əlbəttə ki, bu il 20 faizdən çox, ötən il isə hətta 25 faiz artan turizmin hiss olunacaq dərəcədə inkişafına gətirib çıxarıb. Bununla yanaşı, eyni zamanda, təhlükəsizliyin etibarlı təminatı göstərir ki, tənasüb tapıla bilər. Biz də buna cəhd edirik. Sözsüz ki, qonşularla, MDB-yə üzv ölkələrlə, bizim çoxdankı dostlarımızla iş əlaqələndirilmədən buna hansısa ölkədə nail olmaq çətin olacaq. Buna görə də biz məhz bu sahədə MDB çərçivəsində əməkdaşlığa çox böyük önəm veririk. Düşünürəm ki, sizin həm bu gün, həm də sabah görüşləriniz olacaq, bizim sərhəd xidmətinin rəhbərliyi sizi görülən işlər barədə məlumatlandıracaq və siz fikir və təcrübə mübadiləsi aparacaqsınız. Bir daha sizi salamlayıram və sizə uğurlu iş arzulayıram.



x x x

Sonra MDB Sərhəd Qoşunları Komandanları Şurasının sədri, Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini, Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişov çıxış edib:

-Möhtərəm cənab Prezident.

İlk növbədə, MDB Sərhəd Qoşunları Komandanlar Şurasının üzvləri adından Sizi və bütün Azərbaycan xalqını dövlət bayramı - Müstəqillik Günü münasibətilə təbrik etmək və Şuranın növbəti iclasını qonaqpərvər Azərbaycanın paytaxtında keçirmək imkanına görə təşəkkürümü bildirmək istərdim. Mən bizim planlarımız barədə qısa məlumat vermək istəyirəm. Komandanlar Şurasının 78-ci iclasında 8 dövlətin nümayəndə heyəti, MDB-nin İcraiyyə Komitəsi, MDB-nin Antiterror Mərkəzi iştirak edir. Gündəliyə çıxarılan məsələlər arasında biz Birlik dövlətlərinin xarici sərhədində operativ şəraitin vəziyyətini müzakirə edəcəyik, yaxın perspektivdə onun inkişafının proqnozunu dəqiqləşdirməyə çalışacağıq. Həmçinin bu iclasda biz Şuranın 2017-ci ildəki işinin yekunlarına nəzər salacağıq və 2018-ci il üçün fəaliyyətini planlaşdıracağıq. Həmçinin transsərhəd cinayətkarlıqla mübarizə, sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi üzrə 6 ümumdövlət proqramının yerinə yetirilməsi ilə bağlı bir sıra məsələləri dinləməyi planlaşdırırıq.

Ənənəvi olaraq biz öz iclaslarımızda veteran hərəkatının möhkəmləndirilməsi məsələsini və bir sıra digər məsələləri nəzərdən keçiririk. Lakin qeyd etmək istərdim ki, onların hamısı sırf tətbiqi xarakter daşıyır və Sizin qeyd etdiyiniz kimi, bizim vətəndaşlarımızın təhlükəsizliyinin təminatına, beynəlxalq terror təşkilatlarına, narkotrafiklərə, qanunsuz miqrasiyaya mənsub şəxslərin keçid kanallarının qarşısının alınmasına, vətəndaşlarımızın və ölkələrimizin təhlükəsizliyində əksini tapan bütün təzahürlərin aradan qaldırılmasına xidmət edir.

Praktiki hissənin gedişində biz Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətində mövcud olan yeni təşəbbüslərlə məmnunluqla tanış olacağıq. Qeyd etmək istərdim ki, bizim iclaslarımız zamanı çoxtərəfli formatla yanaşı, biz ikitərəfli əlaqələrə də böyük diqqət yetiririk. Bu gün mən həmkarlarımın fikrini bilirəm və şəxsən öz fikrimi bildirirəm ki, biz Azərbaycanın Dövlət Sərhəd Xidməti ilə sərhəd fəaliyyətində mütləq qaydada zəruri olan çox etibarlı münasibətləri dəstəkləyirik.

Hörmətli İlham Heydər oğlu.

Bu il Komandanlar Şurası üçün yubiley ilidir. 2017-ci il iyulun 6-da Şuranın yaradılmasının 25 ili tamam oldu. Mən birinci olaraq sərhəd təhlükəsizliyinə töhfənizə, Komandanlar Şurasına dəstəyinizə görə hamımız adından Sizə dərin minnətdarlığımı bildirmək və xatirə hədiyyələrimizi təqdim etmək istərdim.

x x x

Vladimir Kulişov MDB Sərhəd Qoşunları Komandanları Şurasının yaradılmasının 25 illiyinə həsr olunmuş xatirə medalını və hədiyyələri dövlətimizin başçısına təqdim etdi. Sonda xatirə şəkli çəkdirildi.

# "Polşa Azərbaycan ilə əlaqələri genişləndirmək və inkişaf etdirmək niyyətindədir"

## *Prezident İlham Əliyev Polşanın xarici işlər nazirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Polşa Respublikasının xarici işlər naziri Vitold Vaşçikovskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Polşaya builki səfərini məmnunluqla xatırlayaraq bu səfərin uğurla keçdiyini və yaxşı nəticələr verdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın və əldə edilmiş uğurların siyasi, iqtisadi, qarşılıqlı ticarət, investisiya, enerji, nəqliyyat sahələrində daha da genişləndirilməsinin önəmini qeyd etdi və bildirdi ki, Azərbaycan bu istiqamətdə fəal iş aparır.

Prezident İlham Əliyev Şərq Tərəfdaşlığı Proqramına üzv dövlətlərə eyni münasibət göstərilməsinin vacibliyini vurğuladı.

Polşanın xarici işlər naziri Vitold Vaşçikovski Polşa Respublikasının Prezidenti Andjey Dudanın salamlarını dövlətimizin başçısına çatdırdı. Vitold Vaşçikovski Prezident İlham Əliyevin Polşaya səfərini məmnunluqla xatırlayaraq bu səfərin ölkələrimizin möhkəmləndirilməsi baxımından böyük önəm daşıdığını qeyd etdi. Polşanın xarici işlər naziri bildirdi ki, ölkəsi Azərbaycan ilə əlaqələri genişləndirmək və inkişaf etdirmək niyyətindədir. Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlığa toxunan Vitold Vaşçikovski Avropa İttifaqının xarici siyasətində bu istiqamətin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi və Avropa İttifaqının əlaqələrin genişləndirilməsində maraqlı olduğunu dedi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparıldı, Ermənistan tərəfinin danışıqlar prosesini uzatmağa meyilli olduğu qeyd edildi. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, Cənub Qaz Dəhlizinin və nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın əhəmiyyətli rolu vurğulandı.

Dövlətimizin başçısı Polşa Prezidenti Andjey Dudanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Polşa Prezidentinə çatdırmağı xahiş etdi.

# "Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələrin Azərbaycana investisiya qoyması üçün yaxşı imkanlar mövcuddur"

## *Prezident İlham Əliyev Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının nümayəndə heyətini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının baş katibi Əbdüllətif bin Raşid Əl-Zəyyəninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Əbdüllətif bin Raşid Əl-Zəyyənin Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv dövlətlərin rəhbərlərinin salamlarını dövlətimizin başçısına çatdırdı. O dedi: "Biz mövcud əlaqələrin səviyyəsini yüksək qiymətləndiririk və əlaqələrimizin daha da möhkəmləndirilməsində maraqlıyıq. Bu münasibətlərin inkişafında Sizin rəhbərliyinizə görə minnətdarıq".

Azərbaycan-Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının biznes-forumunda iştirak edəcəklərini məmnunluqla qeyd edən Əbdüllətif bin Raşid Əl-Zəyyənin bu tədbirin Azərbaycan ilə təşkilata üzv dövlətlər arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün əhəmiyyətli olduğunu vurğuladı. O bildirdi ki, Azərbaycan ilə əməkdaşlığın gücləndirilməsi regionda təhlükəsizliyin, sabitliyin və iqtisadi inkişafın təmin olunması baxımından önəmlidir. Qonaq dedi ki, sizin gözəl ölkənizə körfəz dövlətlərindən gələn turistlərin sayının artması məmnunluq doğurur.

Təşkilata üzv dövlətlərlə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyini, bu dövlətlərlə güclü siyasi münasibətlərimizin mövcud olduğunu deyən Prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Azərbaycanda turizmin inkişafı üçün böyük işlərin görüldüyünü bildirən dövlətimizin başçısı respublikamıza xarici ölkələrdən, o cümlədən körfəz dövlətlərindən gələn turistlərin sayının durmadan artdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda turistlərə yüksək qonaqpərvərlik göstərildiyini dedi, bunun da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin genişlənməsi işinə töhfəsini verdiyini vurğuladı. İqtisadi əməkdaşlığımız üçün də yaxşı imkanların mövcud olduğunu qeyd edən dövlətimizin başçısı ölkəmizdə investisiya qoyuluşu üçün əlverişli şəraitin olduğunu vurğulayaraq bu baxımdan Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələrin Azərbaycana investisiya qoyması üçün yaxşı imkanların mövcud olduğunu bildirdi. Azərbaycan iqtisadiyyatının rəqabətə davamlılığının artdığını məmnunluqla qeyd edən Prezident İlham Əliyev vurğuladı ki, bu il Davos Dünya İqtisadi Forumu ölkəmizin iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq görüb.

Dövlətimizin başçısı Azərbaycanın İslam həmrəyliyi işinə öz töhfəsini verdiyini, ölkəmizdə bu yaxınlarda İslam Həmrəyliyi Oyunlarının keçirildiyini qeyd edərək, bu Oyunların İslam ölkələri arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini vurğuladı. Söhbət zamanı üzv dövlətlər ilə Azərbaycan arasında hava əlaqələrinin genişləndirilməsinin məqsədəuyğun olduğu qeyd edildi.

Prezident İlham Əliyev Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv dövlətlərin rəhbərlərinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv dövlətlərin rəhbərlərinə çatdırmağı xahiş etdi. Sonda Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

# YAP-ın uğurlarının təməlində xalqın sevgisi və etimadı dayanır

## *Nizami rayonunda YAP-ın yaranmasının 25-ci və dövlət müstəqilliyimizin 26-cı ildönümü münasibətilə tədbir keçirilib*






***Dünən Nizami rayon icra hakimiyyəti Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı ilə birgə YAP-ın yaranmasının 25-ci və dövlət müstəqilliyimizin 26-cı ildönümü münasibətilə Heydər Əliyev adına Neft Emalı Zavodunda tədbir keçirib. Öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.***

Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi təşkilatları içərisində istər kəmiyyətcə, istərsə də keyfiyyətcə bərabəri olmayan bir partiyadır: "Sınaqlardan çıxmış, böyük və şərəfli yol keçmiş Yeni Azərbaycan Partiyası cəmiyyətdə özünəməxsus aparıcı yer tutub. YAP Nizami rayon təşkilatının da partiyanın əldə etdiyi nailiyyətlərdə öz payı var. Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il sentyabrın 11-də Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 143 ərazi ilk partiya təşkilatında 13 mindən çox insan birləşib".

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, məşhur "91-lər"in nümayəndəsi Vüqar Rəhimzadə bildirib ki, YAP Azərbaycanın son dərəcə ağır zamanında, ölkədəki hərcmərcliyin baş alıb getdiyi bir dövrdə yaranıb: "Həmin illərdə Azərbaycanda bir sıra siyasi partiyalar fəaliyyət göstərsələr də, onlar arasındakı daxili çəkişmələr imkan vermirdi ki, ölkədə yaranan böhran aradan qaldırılsın. Azərbaycan müstəqilliyi itirilməyə doğru gedirdi. Bunu görən, xalqının taleyinə laqeyd qala bilməyən insanlar ölkəmizin işıqlı gələcəyi naminə, yeni çağırışlara cavab verə biləcək partiya yaratmaq təşəbbüsü ilə çıxış ediblər. Bu məqsədlə Ümummilli Lider Heydər Əliyevin ətrafında sıx birləşərək, Yeni Azərbaycan Partiyasını yaratmağa nail olublar. 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə təsis konfransı keçirilib və Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi qəbul edilib, Ümummilli Lider yekdilliklə partiyanın Sədri seçilib. Beləliklə də, müstəqil Azərbaycanın yeniliyə açıq, xalqın partiyası - Yeni Azərbaycan Partiyası yaranıb".

Tədbirdə çıxış edən "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir və inkişafını davam etdirir. O, Yeni Azərbaycan Partiyasının xalqı öz ətrafına birləşdirərək, ümumxalq partiyasına çevrildiyini, eyni zamanda, ölkədə demokratiyanın inkişafında aparıcı qüvvə kimi özünü təsdiqlədiyini vurğulayıb.

B.Quliyev, onu da vurğulayıb ki, YAP-ın amalı xalqa, Vətənə və dövlətə sədaqətlə xidmət etməkdən ibarətdir: "Ötən 25 il ərzində partiya bu yolda uğurlu fəaliyyət göstərib. Bu gün YAP ölkəmizin ən güclü və qüdrətli siyasi təşkilatıdır. Azərbaycanın siyasi tarixində YAP qədər güclü və əzəmətli siyasi təşkilat olmayıb. Bunun da ciddi əsasları var. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu partiya xalqımız tərəfindən daim dəstəklənir. YAP uğurlar və qələbələr partiyası kimi yaranıb. Bu uğurlar və qələbələr davamlı olacaq".

Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyası bütün Azərbaycan xalqının mənafeyinə xidmət etmək və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır: "Bu gün Prezident İlham Əliyev YAP-ın fəaliyyət istiqamətlərini daha da genişləndirərək, Ulu Öndərin qarşıya qoyduğu amal uğrunda ətrafına 700 minə qədər insanı toplaya bilib. Bu isə dünənin, bu günün və gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin və etimadının dayandığını bir daha sübut edir".

Tədbirdə digər çıxış edənlər, diqqətə çatdırıblar ki, Prezident İlham Əliyevin doğma və müstəqil ölkəmizin tərəqqisi, inkişafı, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər, onun real nəticələri partiyanın hər bir üzvü qarşısında daha məsul vəzifələr qoyur.

Sonda partiyaya yeni üzv qəbul edilənlərə vəsiqələr, partiya işində xüsusi fəallığı ilə seçilən bir qrup şəxsə fəxri fərmanlar və YAP Nizami rayon təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev Məktəbinin məzunlarına sertifikatlar təqdim edilib.

**Rəfiqə HÜSEYNOVA**

# Şahbaz Quliyev müayinə məqsədilə aparıldığı Yerevandan əvvəlki saxlanma yerinə geri qaytarılıb

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Şahbaz Quliyevlə bağlı məlumat yayıb




2014-cü ilin iyul ayında Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş Kəlbəcər rayonunun ərazisində girov götürülmüş və separatçı Dağlıq Qarabağ rejiminin qeyri-qanuni məhkəməsi tərəfindən azadlıqdan məhrum edilmiş Quliyev Şahbaz Cəlal oğlu cari ilin avqust ayında müayinə məqsədilə aparıldığı Ermənistan Respublikasının Yerevan şəhərindən əvvəlki saxlanma yerinə geri qaytarılıb. Saxlanma yerinə qaytarılma prosesi 2017-ci il oktyabrın 16-da həyata keçirilib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, bu barədə Komissiyaya aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən məlumat verilib.

Məlumata əsasən, zəruri müayinə prosedurlarını keçmiş Azərbaycan Respublikasının vətəndaşı Şahbaz Quliyevin səhhətində hər hansı problem aşkar edilməyib və sağlamlıq durumu normal vəziyyətdədir. Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş Şahbaz Quliyev müayinə üçün Yerevan şəhərinə aparılarkən və saxlanma yerinə geri qaytarılarkən müvafiq prosedurlara uyğun olaraq, Dövlət Komissiyası məlumatlandırılıb.

## Rusiya dekabrın 1-də Türkiyədən pomidor idxalına başlayacaq

Rusiyanın energetika naziri Aleksandr Novak pomidor idxalına dekabrın 1-də başlamaq barədə Türkiyə tərəfi ilə razılıq əldə olunduğunu bildirib. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, Rusiyanın Soçi şəhərində keçirilən tədbirdə çıxış edən Novak Türkiyənin 4 şirkətindən 50 min ton pomidor idxal ediləcəyini deyib. Rusiya Baş nazirinin köməkçisi Arkadi Dvorkoviç isə öz növbəsində Türkiyədən pomidor idxalının dekabr-aprel aylarını əhatə edəcəyini bildirib. Aqrar sektordakı inkişafın oktyabrın 21-də Tatarıstanın paytaxtı Kazanda Rusiya-Türkiyə Hökumətlərarası Komissiyasında müzakirə olunacağı gözlənilir.

# Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi palitrasına yeni nəfəs gətirib



Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 25 illiyi ilə əlaqədar partiyanın Səbail rayon təşkilatı oktyabrın 18-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda "dəyirmi masa" keçirib.

AZƏRTAC xəbər verir ki, tədbir ümummilli lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək partiyasının hansı çətin şəraitdə yaradılması haqqında danışıb, onun təsis edilməsinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib. YAP-ın yaradılmasının tarixi zərurət kimi meydana çıxdığını deyən Ş.Hacıyev qeyd edib ki, həmin ərəfədə Azərbaycanda xaos hökm sürüb. Dağılmaqda olan ölkəni xilas etmək üçün Azərbaycanın bütün regionlarını təmsil edən 91 ziyalının Heydər Əliyevə ümumxalq müraciəti ünvanlaması, həmin il Yeni Azərbaycan Partiyasının təsis olunaraq Heydər Əliyevin YAP-ın ilk sədri seçilməsi milli dövlətçiliyimiz üçün mühüm dönüş nöqtəsi oldu. Ş.Hacıyev müstəqilliyin ilk illərində ölkəmizdə gedən proseslər, Heydər Əliyevin hakimiyyətə qayıtması, müasir Azərbaycan dövlətinin qurulması və Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi on il ərzində Azərbaycanda əldə olunmuş nailiyyətlər haqqında bəhs edib. Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi palitrasına yeni nəfəs gətirib. Bu gün YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqazın ən güclü siyasi qüvvəsi kimi özünü təsdiq edib. Milli Kitabxananın direktoru Kərim Tahirov "dəyirmi masa"da çıxış edərək bildirib ki, bəşər tarixində ölkələrin, xalqların həyatında əhəmiyyətli rol oynayan, onun tarixdən silinməsinə, yox olmasına imkan verməyən şəxsiyyətlər olub. Tarixboyu həmin şəxsiyyətin adı ölkənin, xalqın adı ilə qoşa çəkilib. Ulu öndər Heydər Əliyev də belə şəxsiyyətlərdən biri idi.

Kərim Tahirov Ümummilli Liderin dövlətimiz və xalqımız qarşısında göstərdiyi misilsiz xidmətlərin əhəmiyyətindən ətraflı söhbət açıb.

Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli YAP-ın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb. O deyib ki, ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan müstəqil dövlət kimi qala bildi, inkişaf yoluna qədəm qoydu, gücləndi. Ulu Öndərin əsasını qoyduğu siyasət bu gün Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müzakirələrlə davam edən tədbirdə Milli Kitabxananın bir neçə əməkdaşına Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.



# Binəqədidə "Müstəqilliyimiz dönməzdir, əbədidir, sarsılmazdır!" adlı tədbir keçirilib



Dünən Binəqədi rayon icra hakimiyyətinin, YAP Binəqədi rayon təşkilatının, Binəqədi rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz dönməzdir, əbədidir, sarsılmazdır!" adlı tədbir keçirilib. Tədbir, ilk öncə Azərbaycan Respublikasının Dövlət Himni ilə açıq elan edilib və daha sonra tədbirin aparıcısı 26 illik tarixə malik olan müstəqil Azərbaycanın dövlətçilik tarixi haqqında məlumat verib.

Tədbirdə çıxış edən millət vəkili, AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildiriblər ki, Azərbaycan xalqının əldə etdiyi ən böyük tarixi nailiyyət onun müstəqilliyidir. Xalqımız müstəqilliyini qazandıqdan sonra onu itirmək təhlükəsi ilə üzləşdi. Lakin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin siyasi təcrübəsi nəticəsində, biz bu müstəqilliyi qoruyub-saxlaya bildik. Məhz Ulu Öndər Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini bildirdi. Qeyd edib ki, müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir, müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub-saxlanılır və inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına eyni dərəcədə diqqət yetirilir. Bu gün də müstəqilliyimiz Ulu Öndərin layiqli davamçısı Möhtərəm Prezident İlham Əliyev tərəfindən qorunub-saxlanılır. Bayram təbriklərindən sonra rayonun ictimai-siyasi həyatında fəaliyyətləri ilə fərqlənən şəxslərə Fəxri Fərmanlar təqdim olunub.

**ZÜMRÜD**

# Azərbaycan ilə Polşa arasında yüksək səviyyəli siyasi əlaqələr var

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Polşanın xarici işlər naziri Vitold Vaşçikovski ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında münasibətlərin hazırkı səviyyəsi, gündəlikdə olan məsələlər, habelə müqavilə-hüquq bazası və baxılmaqda olan sənədlərin vəziyyətinə nəzər salınıb və yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulanıb. Diqqətə çatdırılıb ki, bu il Azərbaycanla Polşa arasında diplomatik münasibətlər qurulmasının 25 illiyi qeyd edilir və bununla əlaqədar xarici işlər nazirləri arasında qarşılıqlı təbrik mübadiləsi həyata keçirilib.

Söhbət zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin iyununda Polşaya rəsmi səfərinin və tərəflər arasında əldə olunmuş razılaşmaların, xüsusən də strateji tərəfdaşlıq haqqında birgə bəyannamənin imzalanmasının əhəmiyyəti qeyd edilib. Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşündən danışan Vitold Vaşçikovski hər iki ölkə arasında yüksək səviyyəli siyasi təmasları yüksək qiymətləndirib.

Nazirlər iki ölkə arasında Hökumətlərarası birgə Komissiyanın, Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyətinə, o cümlədən XİN-lərarası siyasi məsləhətləşmələrə toxunublar, müxtəlif formatlarda əməkdaşlıq formalarının intensivləşdirilməsinin vacibliyini qeyd ediblər.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa İttifaqı, xüsusən də Şərq Tərəfdaşlığı proqramı, NATO, ATƏT, habelə Vişeqrad qrupu çərçivəsində əməkdaşlığı təqdir ediblər. Nazirlər regional enerji və nəqliyyat layihələrini, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neft və qazın Avropaya nəqli, eyni zamanda, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat marşrutlarının imkanları, iqtisadi və vaxt baxımından üstünlüklərini müzakirə ediblər.




Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində cari vəziyyətdən danışıb və BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrinin tələblərinin yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Nazir münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini dəstəklədiyinə görə Polşa tərəfinə minnətdarlıq edib. Görüşdə vurğulanıb ki, gələn il Azərbaycanda Polşa məskənlərinin salınmasının 100 illiyi qeyd olunacaq və bu xüsusda, bir sıra ictimai-mədəni tədbirlərin keçirilməsi üçün birgə fəaliyyət proqramı üzərində iş gedir. Eyni zamanda, Polşa Prezidenti Andjey Dudanın Azərbaycana səfər edəcəyinə dair məlumat verilib.

Nazirlər humanitar, turizm, mülki aviasiya və digər qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq, o cümlədən Yaxın Şərqdəki vəziyyət və miqrant məsələlərinə dair fikir mübadiləsi aparıblar. Sonra nazirlər görüşün yekunlarına dair birgə mətbuat konfransı keçiriblər.



# Qaradağ rayonundakı hərbi hissədə “Müstəqillik Günü” qeyd edilib



Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının gənclər birliyi və rayon idman idarəsinin birgə təşkilatçılığı ilə Qaradağ rayonunun Səngəçal qəsəbəsində yerləşən N saylı hərbi hissədə “18 oktyabr - Dövlət Müstəqillik Günü” ilə əlaqədar tədbir keçirilmişdir. SİA-nın verdiyi məlumata görə, tədbirdə Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov, Baş İdarənin gənclərlə iş sektorunun müdiri Zamin Əhmədov, QRGİİ-nin rəisi Elçin Abbasov və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən hərbi hissənin komandiri və digər natiqlər əsgərlərə cansağlığı arzulayıblar və onlara Vətənə sədaqətlə xidmət etməyi tövsiyə ediblər. Çıxış edənlər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrə, xüsusi diqqət və qayğısından, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi istiqamətində gördüyü işlərdən danışıblar. Sonra hərbi xidmətində fərqlənmiş bir qrup əsgər və zabit fəxri fərmanlarla təltif olunublar. Çıxışlar başa çatdıqdan sonra “Laçın” instrumental ansamblının nümayəndələri rəngarəng bayram proqramını nümayiş etdiriblər.

# BSU-da Azərbaycanın Dövlət Müstəqilliyi Günü qeyd edilib



***Dünən Bakı Slavyan Universitetində beynəlxalq münasibətlər kafedrası və beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş elmi-praktiki seminar keçirilib.***

Dövlət Himninin səsləndirilməsi ilə başlayan seminarda çıxış edən BSU-nun rektoru, professor Nurlana Əliyeva qeyd edib ki, oktyabrın 18-i Azərbaycan tarixində ən əlamətdar günlərdən biridir:”Azərbaycan Respublikasının Ali Soveti 1991-ci ildə yaranan tarixi şəraitin nəticəsi olaraq, oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edib. Lakin dövlət müstəqilliyinin ilkin mərhələsində xalqımız böyük çətinliklərlə üzləşib, ağır sınaqlardan keçib. Yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət müstəqilliyi qorunub-saxlanılıb, möhkəmləndirilib, dönməz və əbədi xarakter alıb, respublikamız sürətli inkişaf yoluna qədəm qoyub. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində demokratik, hüquqi dövlətçilik prinsipləri bərqərar edilib”.

Bu gün Azərbaycanın mədəni inkişafından, iqtisadi gücündən xəbər tutub ölkəmizə axın edən əcnəbi vətəndaşların Azərbaycan haqqında müsbət fikirlər səsləndirdiklərini bildirən N.Əliyeva xalqların birliyi məsələsinə də toxunub. Rektor qeyd edib ki, hazırda Bakı Slavyan Universitetinin 6 tələbəsi Soçidə beynəlxalq festivalda iştirak edir. O, bunun dövlətimizin gənclərə göstərdiyi diqqət və qayğısının bariz nümunəsi olduğunu diqqətə çatdıraraq, müstəqillik yolunda gəncləri mübariz olmağa çağırıb. Müstəqillik bayramı münasibəti ilə hər kəsi təbrik edən Nurlana Əliyeva ölkəmizin müstəqilliyinin daimi olmasını arzulayıb, xalqımızı Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməyə səsləyib.

Sonra Dövlət Müstəqilliyi Gününə həsr olunmuş film nümayiş olunub.

Film nümayişindən sonra beynəlxalq münasibətlər kafedrasının dosenti Ləman Qarayeva “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır” adlı məruzə ilə çıxış edib. O, məruzəsi zamanı Azərbaycanın müstəqillik tarixinə həsr olunmuş slaydı iştirakçılara təqdim edib.

Beynəlxalq münasibətlər kafedrasının dosenti Zümrüd Məlikova “Müstəqil Azərbaycan dövlətçiliyində Heydər Əliyev fenomeni” adlı məruzəsində müstəqilliyin əldə olunması yolunda əvəzsiz xidmətləri olan Dahi Heydər Əliyevin siyasi fəaliyyətini əks etdirən slaydı təqdim edib.

Sonda beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin II kurs tələbəsi Alina Qulinanın “Müstəqil Azərbaycanın inkişaf dinamikası və Azərbaycan gəncliyi” adlı çıxışı dinlənilib. O, Azərbaycanda gənclərə verilən önəmin, onlara təhsil sahəsində göstərilən diqqətin və perspektivli gənclər üçün yaradılan şəraitin Azərbaycan dövlətinin gənclər siyasətinin əsas prinsiplərindən olduğunu bildirib.

***ZÜMRÜD***

# “Nar” operatoru “TaxFree” mobil tətbiqini təqdim etdi




“TaxFree4U” əlavə dəyər vergisinin (ƏDV) geri qaytarılması onlayn xidmətinin bazası əsasında “Nar” operatoru ƏDV-nin qaytarılması prosesini sadələşdirəcək “Nar TaxFree” mobil tətbiqini təqdim etdi. Bu yenilik sayəsində “Nar” istifadəçiləri ölkə xaricində alış-verişə sərf etdikləri məbləğin 19%-dək olan hissəsini geri ala bilirlər. “Nar TaxFree” xidməti Almaniya, Fransa, İtaliya, İspaniya, Finlandiya və Böyük Britaniya kimi Avropa ölkələrində xərclənmiş məbləğin ƏDV hissəsinin geri qaytarılmasını təmin edir. Eyni zamanda, “TaxFree” anketinə gömrük zabitinin müvafiq möhürünü vurdurmaq və alınmış mallarla istənilən Avropa İttifaqı ölkəsini tərk etmək mümkündür. “Nar TaxFree” tətbiqi sayəsində “Nar” abunəçiləri səyahətdə olarkən vaxtlarına qənaət edə bilirlər. Artıq bəyannamə doldurmaq və bir neçə yerdə növbəyə durmağa ehtiyac yoxdur. Üstəlik, xidmət qısa zaman ərzində mümkün olan ən yüksəkfaizli ƏDV qaytarılması praktikasını təmin edir. “Nar TaxFree” tətbiqinin ən böyük üstünlüyü isə sadəcə tərəfdaş mağazalar şəbəkəsində edilən alış-verişə görə deyil, ƏDV ödəyicisi olan bütün ticarət obyektlərində edilən alış-verişə görə ödənmiş məbləğin əlavə dəyər vergisi hissəsinin geri qaytarılmasını təmin etməsidir.

Tətbiqdən yararlanmaq üçün “6592” qısa nömrəsinə SMS göndərərək yükləmə keçidini əldə etmək kifayətdir. Azərbaycan, ingilis və rus dillərində təqdim edilən mobil tətbiqdən Avropa İttifaqı ölkələri vətəndaşı olmayan bütün “Nar” istifadəçiləri istifadə edə bilərlər. “Nar TaxFree” tətbiqi haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək mümkündür.

“Azerfon” şirkəti 21 mart 2007-ci ildə “Nar Mobile” ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən “HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

19 oktyabr 2017-ci il

# Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunub, hərbi parad keçirilib




***Oktyabrın 18-də - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov tədbirdə iştirak ediblər.***

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev tədbirə hazırlıq barədə Ali Məclisin Sədrinə raport verib. Ali Məclisin Sədri əsgərləri salamlayıb. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dövlət Müstəqilliyi Gününün Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü ilə qeyd olunduğunu bildirib, əlamətdar bayramlar münasibəti ilə tədbir iştirakçılarını, eləcə də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublika ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, bütün muxtar respublika əhalisini təbrik edərək deyib: Müdriklər dövlətlərin qüdrətini onun ordusunun qüdrəti ilə ölçürdülər. İtalyan filosofu və mütəfəkkiri Nikolo Makiavelli özünün məşhur "Hökmdar" əsərində göstərirdi ki, "bütün dövlətlərdə hakimiyyətin əsasını yaxşı qanunlar və yaxşı ordu təşkil edir".

Ali Məclisin Sədri deyib: Ümummilli Liderimiz Azərbaycana hər iki rəhbərliyi dövründə dövlət və ordu quruculuğu məsələlərini diqqətdə saxlamış, ordu quruculuğu sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirmişdir. Ölkəmizdə dövlət müstəqilliyi elan olunandan sonra bu müstəqilliyin qorunmasına da 1991-ci ilin sentyabrında Naxçıvanda ilk milli ordu qurumunun yaradılması ilə başlanılmışdır. O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən Ümummilli Liderimiz muxtar respublikanın sərhədlərinin möhkəmləndirilməsi və müdafiəsinin təşkili haqqında qərarlar qəbul etmiş, bununla da milli hərbi hissələrə və könüllü dəstələrə vahid rəhbərlik təmin olunmuşdur. 1992-ci il sentyabrın 15-də isə Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumu - 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmişdir. 25 il bundan əvvəl - 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilən ilk hərbi paradda ümummilli lider Heydər Əliyev deyirdi: "Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır".

Qeyd olunub ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Liderimiz ordu quruculuğunu dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirib, Silahlı Qüvvələrimiz mühüm təşkilatlanma və inkişaf yolu keçib. Ümummilli Liderimizin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da artıb, maddi-texniki bazası möhkəmləndirilib, hərbçilərin sosial-məişət şəraiti yaxşılaşdırılıb. Hazırda müasir texnikalarla təchiz edilmiş Azərbaycan ordusu yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdir. Ali Baş Komandan Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə də xüsusi diqqət yetirir. Ölkə Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Naxçıvanda 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Naxçıvanın etibarlı müdafiəsi ilə bağlı görülən tədbirlərin davamıdır.

Ali Məclisin Sədri deyib: Bu gün Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, şəxsi heyətin döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı artırılır. Son 25 il ərzində muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirilmiş, müxtəlif hərbi təyinatlı 214 obyekt istifadəyə verilmişdir. Əlamətdar yubiley günündə yeni Təlim-Tədris Mərkəzinin istifadəyə verilməsi də ordu quruculuğu sahəsində görülən işlərin davamıdır.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsində, buradakı ordu hissələrinin formalaşmasında Türkiyə Respublikasının təmənnasız köməkliyinə görə qardaş Türkiyə dövlətinə, xalqına və Silahlı Qüvvələrinə hörmət və ehtiramını bildirib.

Daha sonra Ali Məclisin Sədri şəxsi heyətə müraciətlə deyib: Bu gün sizin qarşınızda mühüm vəzifələr dayanır. Bilirik ki, daim şərəfli əsgər və zabit adını doğrultmağa çalışır, Vətənə, ümummilli lider Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirsiniz. Naxçıvan Muxtar Respublikasının fəal strateji mövqedə yerləşməsi sizin üzərinizə düşən məsuliyyəti daha da artırır. Bu gün Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki hərbi hissələrində olan birlik, vətənpərvərlik və yüksək döyüş əhvali-ruhiyyəsi, torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. İnsanlar muxtar respublika ərazisindəki ordu birləşmə və hissələrinə güvənərək rahat yaşayır, təsərrüfatlarını genişləndirir, muxtar respublikanın inkişafına öz töhfələrini verirlər.



Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordusunun qarşısında duran vəzifələrin bundan sonra da peşəkarlıqla icra ediləcəyinə əminliklə bir daha Naxçıvanda ilk milli hərbi

hissənin yaradılmasının 25-ci ildönümü münasibəti ilə tədbir iştirakçılarını və şəxsi heyəti təbrik edib, çıxışını Ali Baş Komandan cənab İlham Əliyevin fikirləri ilə tamamlayıb: “Bu gün Azərbaycan xalqı vahid amal ətrafında birləşib - ölkəmizi daha da gücləndirməliyik, müstəqilliyimizi daha da möhkəmləndirməliyik, ordumuzun gücünü daha da artırmalıyıq ki, ərazi bütövlüyümüzü bərpa edək”.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev tədbirdə çıxış edərək deyib ki, bu gün muxtar respublikada hərbi xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb. Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazası möhkəmləndirilib, ordu ən müasir silahlarla təchiz olunub, Əlahiddə Aviasiya hərbi hissəsi yaradılıb. Muxtar respublikadakı bütün hərbi hissələr, xüsusilə də müdafiə zolağında yerləşən döyüş mövqeləri əsaslı şəkildə yenidən qurulub, xidmətin nümunəvi təşkili üçün lazımi şərait yaradılıb. Həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olub.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edərək deyib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu tədbirləri bu gün Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasının müdafiəsinin etibarlı təşkili ölkəmizdə həyata keçirilən ordu quruculuğu tədbirlərinin əsas istiqamətlərindəndir. Muxtar respublikada Əlahiddə Ümumqoşun Ordunun yaradılması və onun müasir silah, döyüş texnikası, aviasiya, hava hücumundan müdafiə qurğuları ilə təchiz olunması bu sahədə görülən işlərin tərkib hissəsidir. Bu gün Əlahiddə Ümumqoşun Ordu istənilən döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdir. Zakir Həsənov Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə şəxsi heyətə təbriklərini çatdırıb.

Sonra Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad keçirilib.

Hərbi paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun, birləşmə və hissələrinin 2 min nəfərə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi iştirak edib. Hərbi paradı minlərlə muxtar respublika sakini izləyib.

Paradda ilk olaraq Azərbaycan Respublikasının dövlət bayrağı altında Heydər Əliyev adına Hərbi Liseyin kursantları meydana daxil olublar. Bu gün Heydər Əliyev adına Hərbi Lisey mötəbər hərbi təhsil müəssisəsinə çevrilib. Gələcəyin zabitləri üçün hər cür tədris şəraiti yaradılıb. Liseyin məzunları Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif bölmələrində ləyaqətlə xidmət edir, Naxçıvanın qədim hərb ənənələrini şərəflə yaşadırlar.

Əlahiddə Ümumqoşun Ordunun mexanikləşdirilmiş, motoatıcı, xüsusi təyinatlı, kəşfiyyat, dağ atıcı, tank, reaktiv artilleriya, hava hücumundan müdafiə və rabitə bölmələrinin, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki-müdafiə alayının şəxsi heyəti nizami addımlarla tribunanın önündən keçiblər. Sonra hərbi texnikanın keçidi olub.

Əlahiddə Ümumqoşun Ordunun bayrağının ardınca üzərində tank əleyhinə idarə olunan “SPAYK” raket kompleksləri quraşdırılmış “Qred Vul” avtomobilləri, “Ştorm-3” Sofa maşını, “Kobra” yüngül zirehli transportyoru, iriçaplı pulemyot quraşdırılmış “Sandkat” avtomobilləri meydana daxil olub. Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan “Marauder” zirehli döyüş maşınları, “Orbiter-3B” pilotsuz uçuş aparatları tribuna önündən keçib. Sonra dağlıq ərazidə aparılan döyüşlərdə yüksək manevrliliyi ilə seçilən “Lançer” reaktiv artilleriya kompleksi, “Sani” minaatanları, avtomobillər üzərində quraşdırılmış müxtəlif markalı artilleriya qurğuları, tank əleyhinə “D-44” topu və “MT-12” topları, atəş dəqiqliyi və effektivliyinə malik “D-30” haubitsası, “D-20” və “M-46” top haubitsası, atəş uzaqlığı 35 kilometrə qədər olan “Qiasint-B” topları nümayiş olunub.

Hərbi paradda “BM-21 Qrad”, “Qrad-LAR”, “Sakarya”, “Qasırğa” yaylım atəşli reaktiv sistemləri, “Smerc” döyüş maşını, idarəetmə məsafəsi və məhvetmə imkanı artırılmış “OSA”, “S-125” zenit raket kompleksləri, zirehli transportyor “BTR-82A”, piyadaların döyüş maşınları, özüyeriyən tank əleyhinə “Xrizantema” kompleksi, müasir aşkaretmə, izləmə və atəşaparma cihazları ilə təchiz olunmuş “T-72 M1” və “T-90C” tankları, eləcə də “T-90C” tankı üzərində quraşdırılmış “TOS-1A” reaktiv sistemi və özüyeriyən artilleriya qurğusu “Qvozdika” keçidi davam etdirib. Əlahiddə Ümumqoşun Ordunun silahlanmasında olan silah və texnika kolonunu “ZQ-23-2” zenit qurğularının keçidi tamamlayıb.

“Mİ-17-1V” hərbi vertolyotu Azərbaycan bayrağını dalğalandırıb, “SU-25” döyüş təyyarələri, “Mİ-17-1V” və “Mİ-35M” vertolyotları müxtəlif döyüş düzülüşündə səmanı fəth ediblər. Bununla da hərbi parad başa çatıb.

Müstəqillik günündə Naxçıvanda ilk milli hərbi hissənin yaranmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradın keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrin güc və qüdrətini bir daha nümayiş etdirib.

Əlahiddə Ümumqoşun Ordunun yeni Təlim-Tədris Mərkəzi istifadəyə verilib

Oktyabrın 18-də Əlahiddə Ümumqoşun Ordunun yeni Təlim-Tədris Mərkəzi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib.

Tədbirdə “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanlarının, bir qrup hərbiçiyə isə Ali Məclis Sədrinin hədiyyələrinin təqdimatı olub.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 17 oktyabr tarixli Sərəncamı ilə hərbi xidmətdə səmərəli fəaliyyətinə görə 10 hərbçi “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”, 10 hərbçi isə “Rəşadətli əməyə görə” nişanları ilə təltif olunub.

Ali Məclisin Sədri “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanlarını, eləcə də hədiyyələri hərbçilərə təqdim edib.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov döyüş hazırlıqlarının həyata keçirilməsində əldə etdikləri nailiyyətlərə, xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə bir qrup hərbi qulluqçuya “Şücaətə” görə və “Hərbi xidmətdə fərqləndiyinə görə” 1-ci, 2-ci və 3-cü dərəcəli medallarını, bir qrup hərbi qulluqçuya isə vaxtından əvvəl hərbi rütbələri təqdim edib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Təlim-Tədris Mərkəzinin açılışını bildirən lenti kəsiblər.

Mərkəzlə tanışlıq zamanı qeyd olunub ki, 3 mərtəbədən ibarət olan binada simulyasiya mərkəzi, trenajor zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, mətbəə, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı var. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub.







Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə 18 trenajor quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması üzrə təlimlərin keçirilməsi öyrədiləcək. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verəcəkdir.

Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik 100 kompüter və proyektorlar quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyinin müqayisə etmək mümkündür.

Tədbir zalına baxış zamanı Əlahiddə Ümumqoşun Ordunun keçdiyi inkişaf yolundan bəhs edən film göstərilib.

Kitabxanada Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları qoyulub. Burada şəxsi heyət üçün gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı var. Həmçinin kitabxanada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamına uyğun olaraq “Oxunması zəruri olan kitablar”dan ibarət guşə də yaradılıb. Ali Məclisin Sədri Təlim-Tədris Mərkəzinin imkanlarından səmərəli istifadə olunması, şəxsi heyətin nəzəri biliklərinin və döyüş hazırlığının daha da artırılması ilə bağlı tapşırıqlar verib.

# Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü partiyasıdır

*YAP-ın yaranmasının 25 illik yubileyi münasibəti ilə YAP Daşkəsən rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlər davam edir*



Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə, təsdiq olunmuş qrafikə uyğun olaraq, Daşkəsən rayonunun Mərkəzi rayon Xəstəxanası, Gigiyena və Epidemiologiya Mərkəzi, Daşkəsən şəhər Gənclər İdman və Turizm idarəsi, DSMF-nun rayon şöbəsi, Meşə Mühafizəsi və Bərpası Müəssisəsi, Kobalt qəsəbə ərazi ilk partiya təşkilatlarında təntənəli yığıncaqlar keçirilmişdir.

YAP Daşkəsən rayon təşkilatı aparatının rəhbəri Sərdar Xıdırov, gənclər birliyinin sədri Elşən Alıyev və idarə heyətinin üzvü Nüsrət Vəliyev yığıncaqlarda iştirak etmişlər.

Görüşlərdə və tədbirlərdə çıxış edənlər YAP-ın yaranması, keçdiyi zəngin və şərəfli tarixə nəzər salaraq, bildiriblər ki, YAP 25 il ərzində çətin və şərəfli yollardan keçərək, bu gün Azərbaycanın ən güclü partiyası kimi formalaşıb. YAP ölkədə keçirilən bütün siyasi kampaniyalarda qələbə qazanır. Ümummilli Lider Heydər Əliyevin 25 il öncə uzaqgörənliklə qeyd etdiyi kimi, "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır ".

Çıxışlarda o fikir xüsusi ilə vurğulanmışdır ki, ciddi sınaqlardan çıxmış YAP 25 il ərzində təşəkkül tapıb, inkişaf edib, möhkəmlənib və ildən-ilə öz sıralarını genişləndirərək, xalqın partiyasına çevrilib.

**RƏFİQƏ**

# Qobustan rayonunda Yeni Azərbaycan Partiyasının 25 illiyi ilə bağlı tədbirlər davam edir



***Dünən YAP Qobustan rayon təşkilatının Qobustan rayon Telekommunikasiya ərazi ilk partiya təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə dəyirmi masa keçirib. Tədbirdə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.***

Tədbiri giriş sözü ilə açan YAR Qobustan rayon Telekommunikasiya ərazi ilk partiya təşkilatının sədri Bəhruz Aslanov partiyanın yaranma tarixi ilə bağlı ətraflı məlumat verib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev bildirib ki, Azərbaycanın siyasi həyatında əhəmiyyətli rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubiley qeyd olunur: "Bu yubiley ərəfəsində tarixi yaddaşımıza nəzər salsaq, Yeni Azərbaycan Partiyasının ölkəmizin çətin və böhranlı dövründə obyektiv zərurətdən meydana çıxdığını iftixar hissi ilə qeyd edə bilərik. Dövlətin və cəmiyyətin həyatında mühüm müəyyən rol oynayan, demokratik- hüquqi, sivil və dünyəvi dövlətçiliyin təməl prinsiplərindən, əsas atributlarından sayılan siyasi partiyalar, adətən, zərurətdən, milli tələbatdan yaranır. Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi nəcib amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması da tarixi zərurətdən, milli tələbatdan irəli gəlib."

Tədbirdə fəal partiya üzvlərindən Rza Quliyev, Hikmət Əkbərov və başqaları çıxış edərək, çox ağır və çətin şəraitdə yaradılan Yeni Azərbaycan Partiyasının yarandığı gündən şərəfli bir yol keçərək, cəmiyyətin əsas aparıcı siyasi təşkilatına çevrildiyini, bu müddət ərzində, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin daha da möhkəmlənməsində ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətdən bəhs ediblər. Çıxış edənlər, onu da vurğulayıblar ki, Azərbaycanın bugünkü inkişafı və tərəqqisi hər bir Azərbaycan vətəndaşında və Yeni Azərbaycan Partiyasının hər bir üzvündə qürur hissi doğurur.

**R.HÜSEYNOVA**

# "Yeni Azərbaycan Partiyası 25-il uğurla - əbədi müstəqilliyimiz"

*YAP Yevlax şəhər təşkilatı Yevlax şəhər Mədəniyyət Mərkəzi ilə birlikdə bu mövzuda tədbir keçirib*




Dünən YAP Yevlax şəhər təşkilatı Yevlax şəhər Mədəniyyət Mərkəzi ilə birlikdə "Yeni Azərbaycan Partiyası 25-il uğurla - əbədi müstəqilliyimiz" mövzusunda tədbir keçirib.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin, şəhidlərimizin və dünyadan köçən partiya üzvlərimizin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad etdikdən sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətindən bəhs edən filmə baxış keçiriblər.



Sonra Yevlax şəhər Mədəniyyət Mərkəzinin drektoru Eldəniz Mustafayev tədbirin məqsədi haqqında ətraflı məlumat verib. Bərdə Regional Mədəniyyət və Turizm İdarəsinin nümayəndəsi Rafiq Məmmədov "25 illik uğur" mövzusunda məruzə ilə çıxış edərək, Yeni Azərbaycan Partiyasının şərəfli həyat yolundan danışıb, xalq və Liderin məhəbbətinin vəhdətindən yaranan suveren müstəqil Azərbaycanın uğurlarını diqqətə çatdırıb.

Tədbirdə YAP Yevlax şəhər təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova, YAP Yevlax şəhər təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev keçirilən tədbiri yüksək qiymətləndiriblər. Bildiriblər ki, bu gün Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasını və onun Sədri İlham Əliyevin uğurlu siyasətinin dəstəkləyir. Məhz bunun nəticəsidir ki, bu gün YAP sırlarında 700 mindən çox fəal üzv cəmləşib. Biz sevinirik ki, bu gün Heydər Əliyev ideyası ölkəmizdə uğurla həyata keçirilir.

Sonda fəxri mədəniyyət işçisi Eldəniz Mustafayev bədii qiraətlə tədbiri davam etdirib.

**R.NURƏDDİNOĞLU**

# Səudiyyəli nazir: "Saudi Aramco"nun səhmlərinin satılması prosesi gələn il tamamlanacaq

Səudiyyə Ərəbistanının milli neft şirkəti "Saudi Aramco"nun səhmlərinin satışı gələn il həyata keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih deyib. Nazir prosesin gələn il tamamlanacağını bildirib: "Saudi Aramco"nun səhmləri 2018-ci ildə beynəlxalq və yerli bazarda satışa çıxarılacaq. Hazırda bu istiqamətdə işlər gedir".

# Musiqimizə yeni yollar açan novator sənətkar

## *Dövlət başçısının Sərəncamı ilə Qara Qarayevin 100 illik yubileyi keçiriləcək*

***Tarixən böyük sənətkarlar yetişdirən, dünya mədəniyyəti tarixinə novatorluğu ilə töhfələrini verən Azərbaycan müasir dövrümüzdə böyük səhnələrdə öz sözünü deyir. Bu, sənət aləmində irs qoyan və mədəniyyət və incəsənətin bütün sahələri üzrə məktəb yaradan simaların istedad və gərgin əməyi nəticəsində mümkün olmuşdur. Azərbaycanın böyük sənətkarı Qara Qarayev də dünya musiqi mədəniyyətinin nadir simalarındandır. Onun dərin məzmunlu, zəngin, böyük ümumiləşdirmə qüvvəsinə malik musiqisi XX əsr ümumbəşər mədəniyyətinin ən nadir səhifələrindən biridir. Belə bir sənətkarın - Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin 2018-ci ilin fevral ayında anadan olmasının 100 illiyi tamam olur. Bu sənətkarın 100 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalayıb.***



Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.

Qeyd edək ki, Qara Əbülfəz oğlu Qarayev 1918-ci ildə Bakıda həkim ailəsində anadan olmuşdur. O, ilk musiqi təhsilini musiqi məktəbində Kozlovun başçılığı altında alır, 30-cu ildə isə Bakı Musiqi Texnikumunda yüksək professional keyfiyyətlərə malik müəllim Şaroyevin sinfində təhsilini davam etdirir.

Bəstəkarlığa olan meyli onu Konservatoriyaya gətirib çıxarır. Hələ tələbə ikən, o, öz qələmini simfonik və kamera əsərlərində sınayır. 1937-ci ildə onun "Tsarskoye selo heykəli" fortepiano əsəri, orkestr üçün yazılmış "Nəğmələr" əsəri meydana gəlir.

Onun tərcümeyi-halında qeyd olunub ki, bəstəkar 1939-cu ildə Moskva Dövlət Konservatoriyasına daxil olur. Burada təhsil illərində Cövdət Hacıyevlə birgə "Vətən" operası üzərində işləyir. Bu dövrdə yazdığı əsərlər artıq onun fitri istedada malik olduğunu nümayiş etdirir. Bu, fortepiano üçün yazılmış "Üçsəsli fuqa" (1939), simfonik orkestr üçün "Passakaliya və üçmövzulu fuqa" (1941), nəfəsli alətlər üçün "İdman" süitası (1938), "Ömər Xəyyamın sözlərinə 6 rübai" (1946) romanslar məcmuəsi idi.

1943-cü ildə bəstəkar 2 hissədən ibarət olan si-minor simfoniyasını başa çatdırır. Bu əsər S.Hacıbəyov və C.Hacıyevin simfoniyaları ilə yanaşı, milli simfonizmin yaranmasına zəmin yaradır.

1946-cı ildə bəstkar Do-major tonallıqlı II simfoniyasını başa çatdırdı. 5 hissədən ibarət olan bu əsərdə Böyük Vətən müharibəsinin qurtarması ilə əlaqədar olaraq insanların keçirdiyi həyacan hissi təsvir olunmuşdur. 1947-ci ildə Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar Q.Qarayev "Leyli və Məcnun" simfonik poemasını yazır. Bu əsər bir hissəli simfonik poema üçün ənənəvi olan sonata formasında, lakin yeni traktovkada yazılmışdır. Nizami obrazlarından ruhlanan bəstəkar 1949-cu ildə "Yeddi gözəl" simfonik süitasını yazır. Musiqimizin ən məşhur əsərlərindən olan bu süita dünyanın bir çox guşələrində dinləyicilərin rəğbətini qazanmışdır. Onlardan "Yeddi gözəl" baletinə daxil olan məşhur "Vals", "Brilyant" xalq rəqsi əsasında yazılmış "Təlxəklərin rəqsi", "Yeddi gözəl"in ayrı-ayrılıqda portreti, məhz ilk dəfə süitada səslənmişdir.

Görkəmli rejissor G.Hidayətzadənin təklifilə bəstəkar Nizami Gəncəvinin "Xəmsə"sinin motivləri əsasında "Yeddi gözəl" baletini yazır. Balet 1952-ci ildə Azərbaycan Opera Teatrının səhnəsində tamaşaya qoyulur və o gündən ayaq açıb bütün dünyanı dolaşır.

Q.Qarayevin kamera orkestri üçün yazılmış III simfoniyası müasir dövrün emosional və fəlsəfi fikrini ifadə edir. Əsərin II hissəsində aşıq ritmləri eşidilir. Simfoniya "Segah" muğamının başlıca intonasiyası ilə bitir. Simfoniyanın mərkəzində intellektual cəhətdən zəngin və mürəkkəb dünyagörüşlü insan durur.

Bəstəkar konsert janrı sahəsinə də müəyyən yeniliklər gətirmişdir. Onun görkəmli Sovet skripkaçısı L.Koqana həsr etdiyi skripka və simfonik orkestr üçün konsertində (1968, ilk dəfə Koqan ifa edib) və fortepiano ilə orkestr üçün konsertində (1978) novatorluq axtarışları öz əksini tapmışdır.

Q.Qarayev F.Şopen, D.Şostakoviç və K.Debüssi ənənələrini də milli zəmində təkrar etmişdir. Bu mənada, onun 4 dəftərdən ibarət 24 prelüdünü göstərmək olar. Hər dəftər öz məzmunu və ideyası ilə bəstəkarın müxtəlif dövrlərdə yazdığı əsərlərlə səsləşir.

Qara Qarayev Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi özünəməxsus nadir fitri istedada malik şəxsiyyətlərdəndir. Novator sənətkar kimi, o, uzun əsrlik qədim milli musiqi irsinin ənənəvi klassik və ən müasir musiqi formalarıyla son dərəcə ahəngdar vəhdətində çox sayda monumental əsərlər meydana gətirmişdir. Həyat, insan və zaman haqqında dərin fəlsəfi düşüncələri bütün vüsəti ilə yüksək professional səviyyədə əks etdirən həmin ecazkar sənət nümunələri daim əxlaqi-mənəvi kamilliyə çağırır.

Q.Qarayevin həyata müasir baxışı, həyat həqiqətlərini əsl vətəndaş mövqeyindən tərənnüm etmək, ona müdaxilə etmək bacarığı, milli motivlərə müasir münasibət, onun sənət qayəsinə xas olan əsas cəhətlərdir. Ənənəyə sadiqlik və müasirlik Qarayev yaradıcılığında ülvi vəhdət təşkil edir. Bəstəkar özündən əvvəl gələn sənətkarların yaradıcılıq irsinə yeni baxışla yanaşmış, incəsənətdə öz yolunu tapmağa nail olmuşdur.

Bəstəkarın "Leyli və Məcnun" simfonik poeması, "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri, "Don Kixot" simfonik qravürləri, III simfoniyası, skripka və orkestr üsün əsərləri musiqi salnaməsinin ən qiymətli səhifələridir.

Q.Qarayev milli musiqimizə yeni məzmunla yanaşı, müasir ifadə vasitələri və yeni janrlar gətirmişdir. Bəstəkar həm klassikaya arxalanır, həm də klassik ənənələri daxilən dinamik şəkildə dəyişdirir və müasir məzmuna tabe edir. Məsələn, E.Rostanın "Sirano de Berjerak" komediyasının motivləri əsasında "Çılğın qaskoniyalı" müziklində müasir estrada musiqisinin səciyyəvi xüsusiyyətləri intibah dövrünün üslübü ilə uzlaşdırılır, II simfoniyada İ.S. Bax yaradıcılığının dəsti-xətti, simli kvartetdə V.A. Motsartın, baletlərin dramaturji kompozisiyasında P.İ.Çaykovski və S.Prokofyevin, orkestr çalarlarında isə impressionizmin təsiri duyulur.

Bəstəkarın yaradıcılığında diqqəti cəlb edən daha bir cəhət onun başqa xalqların musiqi və mədəniyyətinə böyük marağıdır. Bu maraq onun vətəndaşlıq pozisiyası, onun bir sənətkar kimi dünyada baş verən hər bir hadisəyə öz münasibətini bildirmək məsuliyyəti ilə bağlı meydana gələn bir maraq idi. Bu cəhətdən, onun "Vyetnam suitası", "Alban rapsodiyası", "İldırımlı yollarla" baleti, "Don Kixot" qravürləri diqqəti cəlb edir.

Q.Qarayev yaradıcılığının ən parlaq səhifələrindən birini də onun kino və dram tamaşalarına yazdığı musiqi təşkil edir. Bu mənada, onun "Uzaq sahillərdə" (rej. T.Tağızadə), "Don Kixot" ( rej. Kozintsev), "Qoyya" (rej. Volf), "Bir məhəlləli iki oğlan" (rej. Qurun və Ə.İbrahimov) bədii filmlərinə, "Xəzər neftçiləri haqqında dastan", "Vyetnam", "Dənizi fəth edənlər" sənədli filmlərinə, "Nikbin faciə", "İnsan məskən salır", "Kral IV Henrix", "Otello", "Qış nağılı", "Ölülər", "Antoni və Kleopatra" tamaşalarına yazdığı musiqi qeyd olunmalıdır.

Q.Qarayev həm də gözəl pedaqoq idi. O, 35 illik müəllimlik fəaliyyəti dövründə (Azərbaycan Dövlət Konservatoriyasında) 70 nəfərə yaxın professional, indi adları dünyanın hər tərəfindən eşidilən bəstəkarlar nəsli yetişdirmişdir. R.Hacıyev, F.Əlizadə, A.Məlikov, H.Xanməmmədov, V.Adıgözəlov, X.Mirzəzadə, O.Zülfüqarov, T.Bakıxanov və başqaları, məhz Q.Qarayevin yetirmələridir.

Ölməz sənətkar ictimai işlərdə də fəal çalışmışdır. Uzun illər SSRİ Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Respublikası EA-nın həqiqi üzvü, Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifələrində çalışmışdır. Bəstəkar iki dəfə Dövlət Mükafatına layiq görülmüşdür. Q.Qarayev 1982-ci ildə Moskvada vəfat edib. Onun yaradıcılığı sənətə və həyata münasibəti gələcək nəsillərə örnək olmuş və olacaqdır.

Musiqişünasların fikrinə görə, Qarayevin musiqisi, sözün əsl mənasında, beynəlmiləl keyfiyyət daşıyan bir sənətdir. Bu musiqi milyonlarla ürəkləri hərarətilə, emosionallığı ilə fəth etmiş, müasirliyi, fəlsəfəliyi ilə düşündürmüşdür. Bu musiqi əsərləri ABŞ-da, İngiltərədə, Fransada, Almaniyada, Misirdə, Türkiyədə, Rusiyada, Polşada, Çexiyada, Rumıniyada və başqa bir çox ölkələrin səhnələrində uğurla səslənmişdir. Bəstəkarın əsərləri üçün seçdiyi ədəbi mövzular da yalnız milli ədəbiyyatımızla məhdudlaşmırdı. O, yaradıcılığında Nizami, Səməd Vurğun və Rəsul Rza poeziyasıyla bərabər, Şekspir və Servantes, Puşkin və Ömər Xəyyam, Lermontov və Lope de Veqa obrazlarına müraciət etmiş, müasirləri olan Nazim Hikmət, Lenqston Hyuz, Vsevolod Vişnevski və Piter Abrahams kimi XX əsr sənətkarlarının əsərlərindən ilhamlanmışdır. Qarayevin yaradıcılığının bir önəmli özəlliyini də göstərmək istərdik. Afrikadan Vyetnama qədər müxtəlif xalqların musiqi folkloru Qarayevin yaradıcılıq süzgəcindən keçib yeni keyfiyyət almışdır. Biz bəstəkarın müxtəlif xalqların həyatını əks etdirən, müxtəlif millətlərin musiqi folkloruna əsaslanan əsərlərini dinlədikdə onların, məhz Azərbaycan bəstəkarı tərəfindən duyulub yazıldığını deyə bilərik. Bu cəhətdən bəstəkarın "İldırımlı yollarla" baletinin musiqisini, Alban rapsodiyasını, Vyetnam süitasını, "Don Kixot" simfonik lövhələrini, bir sıra dram əsərlərinə və kinofilmlərinə yazdığı musiqini misal gətirə bilərik. Bəstəkar özü bu barədə belə yazırdı: "Bəzən yaradıcılıqda milli ənənələr sövq-təbii meydana çıxır. Mən ispan, bolqar və Vyetnam mövzuları əsasında musiqi yazıram. Mənə isə deyirlər ki, bu əsərlərdə mənim 8 millətimin, mənim Azərbaycan əllərimin izi qalır. Mən bunun necə baş verdiyini aydınlaşdıra bilmirəm və bu barədə heç düşünmürəm".

Alim bir çox xarici ölkələrdə keçən beynəlxalq konfranslarda, simpoziumlarda Sovet musiqisinin ləyaqətli və səlahiyyətli nümayəndəsi və elçisi kimi dəfələrlə çıxış etmişdir. Onun son çıxışlarından biri də İtaliyada "Sovet musiqisinin vacib prinsipləri" mövzusunda etdiyi məruzəsi olmuşdur. O, həm də parlaq natiq və sərrast söz ustası idi. Qara Qarayev həm də istedadlı ictimai xadim idi. Qara Qarayev cəmi 64 il yaşasa da bu ömür yolunda böyük işlərə müvəffəq olmuşdur. Qara Qarayevin irsi ölməzdir və həmişəyaşardır.

**ZÜMRÜD**

# Daşkəsəndə 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü qeyd edildi



**_Dünən Daşkəsən rayon icra hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin birgə təşkilatçılığı ilə 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü və rayondan olan çağırışçıların silahlı qüvvələrin sıralarına müddətli həqiqi hərbi xidmət keçmək üçün yola salınması və ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının qarşılanması münasibətilə möhtəşəm tədbir keçirilib._**



İlk öncə, rayon rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə dövlət xidmətinin Daşkəsən rayon bölməsinin şəxsi heyəti, şəhid ailələri, Qarabağ Müharibəsi Veteranları, hərbi xidmətə çağırış yaşlı gənclər, məktəblilər, rayon ictimaiyyətinin nümayəndələri və KİV mənsubları rayon mərkəzində ucaldılmış xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin ehtiramla yad edilməsi ilə başlanan tədbiri giriş sözü ilə açan Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev görüş iştirakçılarını Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edib: "Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub-saxlamaq onu qazanmaqdan qat-qat çətindir. XX yüzilliyin sonlarında Sovetlər Birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi".

Ə.Abıyev onu da vurğulayıb ki, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin böyük siyasi qayıdışından sonra əldə etdi: "1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. Məhz Ümummilli Lider Azərbaycanın dövlət müstəqilliyini təhlükələrdən xilas etdi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Əsl müstəqillik isə öz sərvətlərinin tam sahibi olmaqdır. Həmin siyasi xətt Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən müasir zamanın tələblərinə uyğun yüksək səviyyədə bu gün davam etdirilir, ölkəmizin mövqeləri durmadan möhkəmlənir. İndi ölkəmizin ərazi bütövlüyünü təmin edərək, torpaqlarımızı işğaldan azad etməyə qadir müasir dünya standartlarına cavab verən Milli Ordumuz var. Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevrilmişdir. Bu orduda xidmət etməyin özü gənclərimiz üçün şərəflidir".

Görüşdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin rəisi, mayor İxdiyar Əhmədov, Qarabağ müharibəsi əlili Hacı Ənvər Əliyev, hərbi xidmətini uğurla başa vuran Şəhriyar İsayev və başqaları çıxış edərək göstərilən diqqətə, yaradılan hər cür yüksək şəraitə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Daha sonra silahlı qüvvələrimizin sıralarından tərxis olunmuş rayon gənclərinə rayon icra hakimiyyəti tərəfindən hədiyyələr təqdim edilib. Həmçinin, həmin gənclər rayon məşğulluq mərkəzi tərəfindən işlə təmin olunmaları üçün qeydiyyata götürülüblər. Tədbir rayon mədəniyyət və turizm nümayəndəliyinin hazırladığı bayram konserti ilə başa çatıb.

**_R.KAMALQIZI_**

## "Azərbaycana gələn turistlərin sayında 21 faiz artım qeydə alınıb"

İlin əvvəlindən bəri Azərbaycana gələn turistlərin sayında 21 faiz artım qeydə alınıb. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov deyib. Nazir müavininin sözlərinə görə, bu müddətdə ölkəmizə 2 milyon 71 min xarici vətəndaş gəlib. Xarici turistlər arasında Rusiya, İran və ərəb ölkələrindən gələnlər üstünlük təşkil edir. Artım dinamikası daxili turizmdə də qeydə alınıb. Daxili turizm bu ilin 9 ayı ərzində 20 faiz artıb. Yay aylarında - iyun, iyul və avqustda Azərbaycanın bölgələrində 860 min turist istirahət edib. Daxili və xarici turist sayı 3 milyon nəfərdən çoxdur.

# Tərtərdə YAP-nın 25 illiyi ilə bağlı tədbirlər davam edir





Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlərin keçirilməsi davam edib.

9 saylı AYY MMC, Subartezian Quyularının İstismarı İdarəsi, Qaz İstismarı İdarəsi, "Yeni Tərtər" qəzeti və Tərtər İlk Peşə Təhsili Məktəbi ərazi ilk partiya təşkilatlarında keçirilən tədbirlərdə rayon təşkilatı şurasının üzvləri iştirak edib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

9 saylı AYY MMC ərazi ilk partiya təşkilatında təşkilatın sədri Elman Hüseynov, YAP fəallarından Suqra Mirzəzadə, Adil Əhmədov, Nahid Qurbanov, Subartezian Quyularının İstismarı İdarəsi ərazi ilk partiya təşkilatında təşkilatın sədri Ələddin Kərimov, YAP fəallarından Ramiz Qasımov, Tahir Əliyev, Ruqiyyə Ağayeva, Qaz İstismarı İdarəsi ərazi ilk partiya təşkilatında təşkilatın sədri Bilal Musayev, YAP fəallarından Məhiyəddin Alışov, Zakir Mehdiyev, Həmidə Abbasova, Müxlis Əmirov, "Yeni Tərtər" qəzeti ərazi ilk partiya təşkilatının sədri Elfuzə Vəliyeva, YAP fəallarından Tofiq Hüseynov, Əvəz Nəsirov, Nigar Əmrahova, Tərtər İlk Peşə Təhsili Məktəbi ərazi ilk partiya təşkilatının sədri Faiq Məmmədov, YAP fəallarından Qabil Hüseynov, Həmidə Əhmədova, Ofeliya İbrahimova çıxış edərək partiyanın tarixinin müstəqil Azərbaycan dövlətinin tarixi ilə eyni olduğunu, yarandığı ilk gündən XX əsrdə ikinci dəfə müstəqilliyini əldə edən Azərbaycan dövlətinin qorunub saxlanılması, onun siyasi və iqtisadi qüdrətinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ardıcıl siyasət yeritdiyini vurğulayıblar. Qeyd ediblər doğma Azərbaycanımızın müstəqilliyinin əbədiləşdirilməsi Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasətin məntiqi nəticəsidir.

**_R. HÜSEYNOVA_**

# Avropa Şurası -ədalət prinsipi, yoxsa qərəzli dairə

## Bu qurumdan imtina etməyin vaxtı çatıb

***"Avropa Şurası Parlament Assambleyası Qərbin inkvizisiyasıdır və hesab edir ki, proseslərə müdaxilə etmək, eyni zamanda, üzv dövlətlərin daxili siyasətinə qarışmaq hüququ var". Məşhur alman politoloqu Aleksandr Rar AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi məruzələrə münasibət bildirərkən deyib: "Belə vəziyyət Avropa üçün xarakterikdir və bu, intensivləşəcək". Eyni zamanda, politoloq hesab edir ki, bu sənədlərin qəbul edilməsi AŞPA ilə Azərbaycan arasında münasibətlərə təsir göstərməyəcək.***

Bu qurumun daim Azərbaycana qarşı qərəzli, ikiüzlülüyünün səbəbi, Azərbaycanın məhz müstəqil siyasəti, Azərbaycan Prezidentinin milli və dövlət maraqlarına söykənən daxili və xarici siyasəti, Azərbaycanın artan iqtisadi, siyasi və hərbi qüdrətidir. Elə, bu səbəbdən də, Azərbaycana qarşı təzyiq forması kimi müxtəlif bəhanələr tapmağa, ölkəmizə qarşı qərarlar qəbul etməyə çalışırlar. Amma bunu da yaxşı bilirlər ki, Azərbaycan 2001-ci ildə Avropa Şurasına daxil olduqdan sonra üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir və yerinə yetirməyə çalışır. Dəfələrlə Azərbaycan Prezidenti də öz çıxışlarında vurğulayıb ki, Azərbaycan əxlaqlı siyasət yeridir. Bu, həm də Avropa Şurasına münasibətlə bağlıdır. Amma biz zaman-zaman Avropa Şurasından gözlədiklərimizin əksini alırıq. Belə ki, Avropa Şurası Azərbaycana açıq təzyiqlər etməyə çalışır. Bu təzyiqlər Azərbaycanın müstəqil siyasəti, inkişafı və Prezidentin Azərbaycanın milli və dövlət maraqlarına uyğun siyasəti ilə bağlıdır. Eyni zamanda, Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində apardığı siyasət müəyyən dövlətlər və dairələr tərəfindən qəbul olunmur. Ancaq bütün bunlara baxmayaraq, bu təzyiqlərin arxasında Azərbaycanın artan iqtisadi-siyasi və hərbi gücü və müstəqilliyi durur.

### Yaqlandın qərəzçilik borcu

Qərəzçilik borcu olan Yaqlandın bu olaydan əvvəl, jurnalistin ölümü ilə də bağlı qərəzli çıxışları olub. Bir də onun xəmiri belə yoğrulub. Xatırlatmaq istərdik ki, o, bu cür qərəzli çıxışlarını dəfələrlə edib. Ona görə də, AŞPA-nın baş katibi yaxşı olardı ki, bu gün Qərbdə, eləcə də, Avropanın aparıcı ölkələrində baş verən bənzər olaylara qarşı da öz mövqeyini sərgiləsin. Hər halda, onun özü də yaxşı bilir ki, heç bir ölkə bu cür arzuolunmaz cinayətlərdən və hadisələrdən sığortalı deyil. Bu baxımdan, Yaqland bu qədər demokratik və açıq görüşlü bir diplomat olduğunu hesab edirsə, bu zaman Azərbaycanda hakimiyyətlə QHT-lərin, media qurumlarının, o cümlədən, siyasi təşkilatların dialoqları barədə müsbət fikirlərini dünya ilə bölüşsün. Ancaq onun bu ətrafda hər hansı bir müsbət addım atacağı inandırıcı görünmür. Çünki




ikili standart amilinin Yaqlanda, həmçinin, onun kimi insanlara nə qədər sirayət etməsi kifayət qədər bəllidir. Ona görə də, daha yaxşı olardı ki, qərəz və təzyiq dili ilə danışmaqdansa, sussunlar. Ya da ölkəmizdə mövcud olan yeni demokratik mühit modelindən özlərinə ibrət götürsünlər. Yox, əgər bunu də qəbul etmək gücündə deyillərsə, bu zaman onların AŞPA və s. adlı qurumlarda rəhbər postları tutub, qərəzçilik və "demokratiya carçılığı" etmələrinə də ehtiyac yoxdur. Sözügedən məsələ ilə bağlı siyasi politoloqlar və millət vəkilləri bildiriblər ki, Azərbaycan Avropa Şurasını tərk etsə, ölkəmiz bundan heç nə itirmir, amma Avropa Şurası bundan çox şey itirə bilər.

### Aydın Mirzəzadə: "Turbyern Yaqland bu hərəkətləri ilə özünün xidmətini anti-Azərbaycan qüvvələrə təklif etməklə, o, komandada yer almaq niyyətini güdür"

YAP Siyasi Şurasının üzvü, millət vəkili Aydın Mirzəzadə AŞ rəhbəri Turbyern Yaqlandın səsləndirdiyi fikirləri heç bir əsası olmayan və subyektiv fikir kimi dəyərləndirib: "Azərbaycan nəinki Avropa İnsan Haqları Məhkəməsinin qərarlarını, eyni zamanda, bəzi hallarda belə, razılaşmaları icra edir. O baxımdan da, mən T.Yaqlandın səsləndirdiyi fikirləri özünün şəxsi subyektiv mövqeyi kimi dəyərləndirirəm. Çünki Avropa Məhkəməsinin qərarlarının icrası heç də onun dediyi kimi deyil. Avropa İnsan Haqları Məhkəməsinin çıxardığı qərarlar Azərbaycan məhkəmələrinin qərarlarını ləğv etmir və belə hüquqa malik deyil. Sadəcə, onun tövsiyə vermək xarakteri var".

Avropa Şurası kimi bir mötəbər təşkilatın rəhbərinin hüquqi məsələlərlə bağlı digər ölkəyə qarşı belə mövqe sərgiləməsini düzgün hərəkət hesab etməyən A.Mirzəzadə bildirib ki, belə məsələlərdə ən azından, mütəxəssislərin rəyini öyrənmək və ondan sonra mövqe sərgiləmək lazımdır: "Bir də Turbyern Yaqlandın anti-Azərbaycan fikirlər səsləndirməsi birinci dəfə deyil, onun Azərbaycan əleyhinə bir neçə dəfə belə çıxışları olub. Baxmayaraq ki, Azərbaycan vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquqlarının müdafiə sahəsində praktik addımlar atsa da, Avropa Şurası rəhbəri Turbyern Yaqland təşkilatın Nizamnaməsinə zidd olaraq Azərbaycan əleyhinə bəyanatlarla çıxış edib. Yəqin Turbyern Yaqland bu hərəkətləri ilə özünün xidmətini anti-Azərbaycan qüvvələrə təklif etməklə, o, komandada yer almaq niyyətini güdür".

### Bəxtiyar Əliyev: "Azərbaycanda insan haqları tam qorunur, demokratik təsisatlar normal fəaliyyət göstərir və ölkəmiz Avropanın özünə nümunə ola bilər"

Milli Məclisin deputatı Bəxtiyar Əliyev məsələyə münasibət bildirib ki, Azərbaycanda insan haqları tam qorunur, demokratik təsisatlar normal fəaliyyət göstərir və ölkəmiz Avropanın özünə nümunə ola bilər: "Amma çox təəssüflər osun ki, bəzi dairələr öz maraqlarını təmin etdirmək, Azərbaycana öz şərtlərini qəbul etdirmək üçün bir sıra beynəlxalq qurumlardakı bəzi dairələr vasitəsilə ölkəmizə qarşı təzyiq dilində çirkin kampaniyadan istifadə edirlər ki, Azərbaycan onların şərtlərini qəbul etsin. Ancaq onlar bilməlidirlər ki, Azərbaycan öz müstəqil siyasətini davam etdirəcək. Dövlətimiz şəffaf, ədalətli, qarşılıqlı hörmət əsasında bütün ölkələrlə əməkdaşlıq edir. Diqtə, şərt, qeyri-obyektiv və qərəzli təzyiqlə Azərbaycan öz siyasətini dəyişməyəcək".

Deputat qeyd edib ki, Azərbaycan ictimaiyyətinin Avropa Şurası ilə bağlı gözləntiləri özünü doğrultmadı, təşkilat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə heç bir dəstək vermədi: "Təcavüzkar Ermənistan bu gün də Azərbaycan ərazilərini işğal altında saxlayır, ölkəmizə qarşı soyqırımı həyata keçirib və bir milyondan artıq soydaşımızın bütün hüquqlarını tam pozub. Ancaq təəssüflər olsun ki, Avropa Şurası tərəfindən buna heç bir reaksiya verilmir və diqqət yetirilmir".

B.Əliyev, həmçinin, vurğulayıb ki, Ermənistanda insan haqlarının kobud şəkildə pozulmasına, siyasətçilərin güllələnməsinə baxmayaraq, Avropa Şurası bunlara göz yumur: "Azərbaycan Avropa Şurasının möhkəmlənməsinə öz töhfəsini verdi, amma qurum Azərbaycanla bağlı heç bir müsbət iş görmədi. Əksinə, Azərbaycana qarşı təşkilat tərəfindən qarayaxma kampaniyası aparılır və ölkəmizə iftiralar atılır. Təəssüflər olsun ki, bu, Avropa Şurasının rəhbərliyi səviyyəsində dəstəklənir və hətta Avropa Şurası rəhbərləri bu çirkin kampaniyaya başçılıq edir. Bu, Avropa Şurasının prinsiplərinə və məqsədlərinə uyğun deyil. Ona görə də, əgər Azərbaycan Avropa Şurasını tərk etsə, ölkəmiz bundan heç nə itirmir, amma Avropa Şurası bundan çox şey itirə bilər. Ona görə də, düşünürəm ki, bu məsələyə ciddi reaksiya verilməli və Azərbaycanın haqq mövqeyi dəstəklənməli və ölkəmizə obyektiv münasibət olmalıdır".

### Musa Qasımlı: "Azərbaycanın AŞ-dan çıxarılmasını istəyənlər təşkilatın nə qazanıb, nə itirəcəyini düşünməlidirlər"

Milli Məclisin deputatı Musa Qasımlı Turbyern Yaqlandın Azərbaycana qarşı Avropa İnsan Hüquqları Məhkəməsinin 46.4-cü maddəsinin tətbiq olunması istəyinə münasibət bildirərkən deyib ki, Azərbaycanın AŞ-dan çıxarılmasını istəyənlər təşkilatın nə qazanıb, nə itirəcəyini düşünməlidirlər. Deputat hesab edir ki, beynəlxalq və regional təşkilatlarda çalışan bəzi şəxslər Azərbaycanla hökm və təzyiq dili ilə danışmamalıdırlar: "Beynəlxalq və regional təşkilatlarda çalışan bəzi şəxslərin Azərbaycanla hökm və təzyiq dili ilə danışma halları yoxdur. Azərbaycan ilə əməkdaşlıq etməkdə fayda var. Azərbaycanın Avropa Şurasından çıxarılmasını istəyənlər təşkilatın nə qazanıb, nə itirəcəyini də düşünməlidirlər. Ən azı, Rusiya ilə olan münasibətlərin təcrübəsini xatırlamalıdırlar. Həm də Yaqland bütün Avropa Şurası demək deyil".

Bir sözlə, politoloq və siyasətçilər hesab edir ki, bu sənədlər qəbul edilsə və Azərbaycana qarşı bu cür bəyanatlar davam etsə, təbii ki, Azərbaycan Avropa Şurası ilə əlaqələrini və bu qurumda üzvlük məsələsini yenidən nəzərdən keçirməlidir. Çünki bu, bizim hüququmuzdur.

**RƏFİQƏ HÜSEYNOVA**

# Əli Kərimlinin xəyanətilə bağlı yeni faktlar üzə çıxır

***Bu gün sosial şəbəkədə zombiləşmiş dəstənin başçısı olan Əli Kərimli qaragüruhçu başçılarından qeyri hər kəsi ittiham etməyə, xəyanətdə suçlamağa vərdiş edib. Amma ən yaxın tariximizə nəzər saldığımız zaman Ə.Kərimlinin gerçək simasını görürük.***



### Ləkəli keçmişi təmizləmək və yaddaşdan silmək mümkünsüzdür

Satılmağa adət edən və üzü...qırmızı olan Ə.Kərimli bilməlidir ki, tarix unudulmur və ləkəli keçmişi təmizləmək və yaddaşdan silmək mümkünsüzdür. Bu, o Ə.Kərimlidir ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasını xərcləyə-xərcləyə axırda yerdə xırda bir qrup saxlayıb və bu gün o, öz gözündə tiri görmür, ancaq başqasının gözündə tük axtarır. Çünki özü xəyanətkar olduğu üçün çıxış yolunu başqasını suçlamaqla görür. Necə deyərlər, oğru elə bağırır ki, doğrunun bağrı yarılır.

### Ustadına kəm baxan Əli Kərimli

Heç də təəccüb doğurmur. AXCP sədrinin xəmiri belə yoğrulub. AXC-nin bütün strukturlarını "Yurd"laşdırmağa girişən Ə.Kərimli həmin illərdə ustadı Əbülfəz Elçibəyi təhqir edən məqalələr sifariş etməkdən də çəkinmirdi. 1995-ci ildə Ə.Kərimli artıq AXCP-nin proporsional siyahısına başçılıq edərək parlament seçkilərinə qatıldı və sosial şəbəkənin bu zombiləşmiş qaragüruhçu dəstəsinin rəhbəri deputat oldu.

### "O, həmişə satılıb və alınıb"

AXCP sədri Ə.Kərimlinin xəyanət xronologiyasına nəzər salsaq, görərik ki, o, bu günədək siyasi fəaliyyəti ilə hər an Azərbaycanın milli maraqlarını satmağa hazır olduğunu nümayiş etdirib. Sözün açığı, onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar. Bunu uzun müddət Ə.Kərimli ilə bir cəbhədə təmsil olunanlar da bəyan ediblər. AXCP sədri tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna və yoldaşlığına qarşı da xəyanət yolu tutub.

Mənəviyyatsızlıq simvolu olan Ə.Kərimli xarici ölkələrin əlində alətə çevrilən, "siyasi karyerasında", xüsusilə, ermənilərlə işbiriyi quran, dağıdıcılıq, ziyankarlıq, xəyanət missiyasını daim tətbiq edərək düşərgədə qarışıqlıq yaradan, Azərbaycanda "Demokratiyanın İnkişafı Fondu"ndan aldığı pulları mənimsəyərək, başqalarına böhtan atmaqla məşğul olan, "erməni lobbisinin fəxri üzvü, dayısı" adını daşımaqdan utanmadan həmişə şəxsi maraqlarına görə dövlətçiliyimizə xələl gətirməkdə davam edir.

Ə.Kərimlinin başlıca məqsədi Müsavat başqanı İsa Qəmbəri çıxdaş edərək, arxada qoymaq, dağıdıcıların yeganə namizədi olmaq şansına yiyələnməkdir. Ancaq bu inamı çoxdan itirən Ə.Kərimlinin "sədri" olduğu "islahatçılar" arasında da etibarsızlıq nümunəsi olduğu sübuta yetirilib.

Bu məqamda "Milli Birlik Hərəkatı"nın lideri Lalə-Şövkət Hacıyevanın Ə.Kərimli haqqında dedikləri yada düşür: "Azərbaycan siyasətində belə mənəviyyatsızlıq görməmişdim. Adam düşmən olanda, gərək kişi kimi düşmən olsun. Ə.Kərimlidə çox alçaq səviyyə gördüm."

Göründüyü kimi, bu gün Ə.Kərimli heç kimə lazım deyil. Hətta, o, beynəlxalq təşkilatlar üçün lazımsız fiqura çevrilib. Çünki alqı-satqı obyekti olaraq, bu insan çox işlədilib. İşlənmiş əşyalara isə nə Azərbaycan siyasəti, nə də beynəlxalq təşkilatlar ehtiyac duymurlar. Milli xəyanətkarların yeri isə, tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar.

***Rəfiqə HÜSEYNOVA***

# Abşeron yarımadasının bəzi yerlərində hava çiskinli olacaq

Azərbaycanda oktyabrın 19-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Lakin gün ərzində yarımadanın bəzi yerlərində çiskinli yağış yağacağı ehtimalı var. Cənub küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 11-13°, gündüz 17-20° isti, Bakıda gecə 11-13°, gündüz 18-20° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan yüksək - 768 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-60 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz olacağı, lakin günün birinci yarısında bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 18-23° isti, dağlarda gecə 3-8°, gündüz 11-16° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 19-24° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 11-16° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 17-22° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 16-21° isti, dağlarda gecə 0-5° isti, gündüz 8-13° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı ehtimal olunur. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 18-23° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında gün ərazində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Səhər dağlarda duman olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 18-22° isti, dağlarda gecə 3-8°, gündüz 13-18° isti olacağı gözlənilir.

## Moskvada 100-ə yaxın insanı öldürməkdə şübhəli bilinən erməni tutulub



Moskvada 100-ə yaxın insanı zəhərləyək öldürdüyü ehtimal olunan Ermənistan vətəndaşı həbs edilib. Vahan Karapetyan adlı taksi sürücüsü hələlik təkcə jurnalist Artur Bitovu qətlə yetirməkdə ittiham olunur. Həmin qətl hadisəsi ilə əlaqədar aparılan təhqiqat nəticəsində istintaq Karapetyanın izinə düşüb. Ermənistan vətəndaşının evində aparılan axtarış zamanı çoxlu sayda neyroleptik dərman olan "Klazopin" tapılıb. İstintaqın ehtimalına görə, sürücü sərnişinlərinə suya qatılmış uyuşdurucu verdikdən sonra onları öldürüb qarət edirmiş. Onun evindən, həmçinin xeyli sayda qol saatı və mobil telefon aşkarlanıb.

## Pakistanda iki terror hücumu nəticəsində azı 8 nəfər həlak olub

Pakistanın Belucistan əyalətinin Kvetta şəhərində baş verən partlayış nəticəsində azı 7 nəfər həlak olub.



Yenə həmin şəhərdə digər insident zamanı isə polis əməkdaşı güllə ilə vurularaq öldürülüb. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, bomba yüklü motosiklet polis avtomobilinə çırpılıb. Nəticədə partlayış baş verib və avtomobil yanıb. Həyatını itirənlərin 5-i polis, 2-si isə mülki şəxslərdir. Həmçinin əksəriyyəti hüquq-mühafizə orqanlarının əməkdaşları olan 24 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Onlardan bir çoxunun vəziyyəti ağırdır.

Hələlik ölkədə fəaliyyət göstərən heç bir qruplaşma partlayışın məsuliyyətini üzərinə götürməyib.

## Portuqaliyada meşə yanğınları daxili işlər nazirinin istefasına səbəb oldu

Portuqaliyanın daxili işlər naziri Konstansa Urbanu de Soza meşə yanğınları qurbanlarının sayı yüzü keçdikdən sonra istefa barədə ərizə yazıb. AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, təbii fəlakətin baş alıb getməsi səbəbindən tənqid atəşinə tutulan Baş nazir Antoniu Koşta nazirin istefasını qəbul edib.

Qeyd edək ki, bu il Portuqaliya meşə yanğınlarının artıq ikinci dalğasından əziyyət çəkir. İyun ayında təbii fəlakət 64 nəfərin ölümünə səbəb olmuşdu. Oktyabr ayında yanğınlar yeni qüvvə ilə yayılmağa başlayıb. Ayın 15 və 16-da yanğınlar 41 nəfərin ölümü və 71 nəfərin xəsarət alması ilə nəticələnib. Portuqaliyanın mühafizəkar Prezidenti Marselu Rebelu di Soza baş verənlərin məsuliyyətini solçu hökumətin üzərinə atıb.

## Avtomobildən gizli yolla ölkəyə gətirilən fişənglər tapılıb

Avtomobildən gizli yolla ölkəyə gətirilən fişənglər tapılıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında, idarənin "Sınıq Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi minik avtomobilinə gömrük baxışı keçirilib. Yoxlama nəticəsində, avtomobilin sağ və sol qapılarının altında və arxa oturacağın arxasında xüsusi düzəldilmiş gizli saxlanc yerlərində "Magical Shote" adlı 1130 ədəd fişəng aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

***Dünyada hər bir xalqın milli-mədəni özünəməxsusluğu və milli mədəniyyəti həmin xalqın varlığını müəyyən edir. Bu gün Qərb və Şərq mədəniyyətlərindən və dəyərlərindən tez-tez söhbət gedir. Burada iki qlobal sosial-tarixi və mənəvi fenomenləri bir-birindən ayıran, məhz hər iki mədəniyyətə xas olan dünyagörüşünün spesifikliyidir.***

# Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mədəni özünəməxsusluğunun qorunmasında və mədəniyyətinin inkişafında rolu

"Əlbəttə, Şərq və Qərb mədəniyyətlərinin eyni prinsip əsasında ardıcıl şəkildə, monoton inkişaf etdiyini də söyləmək düzgün olmazdı. Hər bir mədəniyyətin daxilində rəngarəng, bir-birinə zidd yanaşma spektrləri mövcuddur. Ona görə də, mədəniyyətin tərkibində, o şeyləri işlətmək lazımdır ki, həqiqətən də, bu amillər mahiyyətcə həmin mədəniyyət tipinə, nəhayət, onun maddi təcrübə tipinə uyğun gəlir.

Şərq və Qərb mədəniyyətlərində davranış modelləri qədim dini təlimlər əsasında təşəkkül taparaq, inkişaf etmişdi. Qərb mədəniyyətində bu antik-xristian, Şərqdə isə Budda-daosizm və islam dünyagörüşü əsasında təzahür tapmışdı". Mədəniyyətin mahiyyətinin dərki müvafiq sosial sistemlərdə insanı azadlığın nailiyyəti, uğuru ilə əlaqələndirir. Kant fəlsəfəsində mədəniyyətin dərki bioloji təbiətin diktə etdiyi eqoist cəhdlərin azad olma, öz ehtiras və davranışlarının mənəvi borca tabe etdirmək bacarığından ibarətdir.

Bu mənada, "mədəniyyət" mənəvi olub, "fəal şəkildə mükəmməllik"dir. İnsanın mənəvi inkişafı onun əxlaqi kamilliyi - bütün bunlar bəşəriyyətin irəliyə doğru addımını təmin edən əsas amillərdir.

Hegel mədəniyyətin mahiyyətini insanın sübyektiv istibdadlardan qurtularaq əqlin ümumbəşəri prinsiplərinədək yüksəlməsi kimi dərk edirdi. Göründüyü kimi, Hegel mədəniyyətin formalaşmasında şəxsiyyət və insan amilini daha qabarıq şəkildə izah edir. Hegelə görə, mədəniyyət insan tələbatlarını inkişaf etdirərək zənginləşdirir.

Azərbaycanın milli-mədəni və özünəməxsus olduğu onun Şərq və Qərb mədəniyyətinin sintezindən ibarət türk-müsəlman mədəniyyəti, Azərbaycan milli mədəniyyəti olmalıdır.

Bu mənada, Ulu Öndər Heydər Əliyev elə hakimiyyətinin birinci Sovet dövründə Azərbaycan milli-mənəvi özünəməxsusluğunun və milli mədəniyyətinin hamisi kimi çıxış etdi. AMEA-nın müxbir üzvü Musa Qasımlı dahi şəxsiyyətin bu çoxtərəfli fəaliyyətini "mədəniyyət milliyyətçisi" kimi səciyyələndirərək yazır: "Deməli, millətin mədəniyyət inciləri yaratması üçün konkret məkan və zaman daxilində sosial-iqtisadi tərəqqisi və buna əlverişli şərait yaradan rəhbəri olmalıdır. Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafına xüsusi qayğı göstərən, onu zənginləşdirən, ölkədə və dünyada tanıdan bir rəhbər idi. Onun hakimiyyəti illərində Azərbaycan xalqı dünya mədəniyyəti yaradıcısı fünksiyasını uğurla davam etdirirdi. Heydər Əliyev dönəmində Azərbaycanda hakim, dominant olan xalqın mədəniyyətinin respublika ərazisində yaşayan bütün etnik qrupların ümumi mədəniyyətinə çevrilməsi prosesi daha da gücləndirildi, Azərbaycan mədəniyyəti hamını sıx birləşdirərək, ümumi sərvətə çevrildi. Milli kimliyin müəyyənləşdirilməsində başlıca meyarlardan biri olan "millətini tanı, mədəniyyətini tanı" şüarı Azərbaycanda ziyalılar tərəfindən uğurla həyata keçirilirdi. Əslində, mədəniyyəti inkişaf etdirmək istiqamətində özünün bütün möhtəşəm fəaliyyəti ilə Heydər Əliyev Azərbaycan Sovet dönəminin kommunist liderləri içərisində ən böyük mədəniyyət milliyyətçisi idi. Çünki o, Azərbaycan xalqının tarixinin, hüququnun, iqtisadi həyatının, sosial quruluşunun, inanc dünyasının, şeirinin, ədəbiyyatının, musiqisinin və b. araşdırılıb ortaya çıxarılması yolunda aparılan çalışmaları təşviq edir, onlara ən əlverişli şərait yaradırdı.

> ***"Əvvəlki illərdə olduğu kimi, Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Sovetlər Birliyinin tərkibində olsa da, mərkəzi hökumət onu bir çox şeylərdən məhrum etmək istəsə də, milli kökdən gələn mənəviyyatını və dəyərlərini məhv edə bilmədi. Nəticədə, Azərbaycan xalqının mədəniyyəti, elmi, təhsili, milli-mənəvi dəyərləri ümumbəşəri və ümumdünya dəyərləri ilə qarşılıqlı əlaqədə inkişaf etdi. Azərbaycan Sovet sistemi şəraitində milli, dünyəvi və qədim tarixə malik mədəniyyəti zənginləşən bir respublikaya çevrildi. Heydər Əliyevin tarixi-mədəni irsə xüsusi diqqət yetirməsi və mədəni-maarif müəssisələrini qurması nəticəsində xalqın özünə inam hissi artır, müstəqillik düşüncələri güclənirdi."***

Məlum olduğu kimi, millətləri bir-birindən fərqləndirən başlıca cəhət onların arasında mədəniyyət müxtəlifliyidir. Əgər mədəniyyətlər arasında fərqlər olmasaydı, dünya yeknəsəq və cansıxıcı görünərdi. Kosmopolitizm mədəniyyət milliyyətçiliyini rədd edərək, bu və ya başqa ölkəni deyil, bütün dünyanı vətən hesab edən şəxsin-kosmopolit dünya vətəndaşının yaradılmasını irəli sürür. Heydər Əliyevin dövründə Azərbaycan mədəniyyətinin yaradıcıları özlərini dünya vətəndaşı deyil, öz respublikalarının, torpaqlarının övladları hesab edir, mədəniyyətlərini, tarixi keçmişlərini sevir və onunla fəxr edirdilər. Əslində, kosmopolitlik milliyyətçiliyin əleyhinə olub millətin, onun yaratdığı mədəniyyətin əksinədir. Heydər Əliyev vahid Sovet xalqı yaratmağı qarşısına məqsəd qoyan marksist-leninçi ideoloji sistem şəraitində həm Kommunist Partiyasının rəhbəri, həm də milli lider, mədəniyyət milliyyətçisi idi. Millətlər arasında fərqləri ləğv etməyi qarşıya qoyan kommunist ideologiyasından fərqli olaraq, Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin qoruyucusu, inkişaf etdiricisi və zənginləşdiricisi funksiyasını sistemli şəkildə, qətiyyətlə həyata keçirirdi. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyətini yaradan böyük sənətkarlar vətən kimi Azərbaycanı görür, onu sevir və tərənnüm edirdilər. Azərbaycan və xalqı haqqında milli ruhu yüksəldən ən gözəl mahnılar və əsərlər, məhz həmin illərdə yaradılmışdı. Bununla belə, Heydər Əliyev başqa xalqların mədəniyyətinə, tarixinə, milli sərvətlərinə hörmət və ehtiramla yanaşırdı, mədəniyyətlərin əlaqəsinə və qarşılıqlı inkişafına tərəfdar idi".

M.Qasımlı Heydər Əliyevin Azərbaycanın milli-mədəni özünəməxsusluğunun, milli mədəniyyətinin qoruyucu, himayəçi, qayğıkeşlik, inkişafetdirici və zənginləşdirici funksiyaları sistemini konkretləşdirərək, daha sonra yazır: "Beləliklə, Heydər Əliyev hesab edirdi ki, milləti dünya xalqları içərisində fərqləndirən başlıca xüsusiyyət onun mədəniyyətidir. Yüksək mədəniyyətə malik olan xalq daim inkişaf edir və irəli gedir. O, Azərbaycanın qədim tarix və mədəniyyət abidələrinin qorunmasında, bərpa edilməsində mühüm rol oynayaraq, həmin məqsədlə dövlət büdcəsindən ayrılan xərcləri daim artırırdı; tarixi yerlərin adlarını bərpa edirdi; arxeoloji qazıntı işlərini genişləndirir, onları maliyyə vəsaiti ilə təmin edirdi; görkəmli memarların yubileylərini keçirir, irsinin öyrənilməsi və təbliğini təşviq edirdi; muzeylərin eksponatlarla zənginləşdirilməsinə, arxivlərin fondlarının artırılmasına qayğı göstərir, yubileylərini keçirirdi; Azərbaycanda və ölkənin müxtəlif şəhərlərində xalqın müasir tarixi ilə bağlı yeni tarixi abidələr tikdirirdi; mədəni-maarif müəssisələrinin şəbəkəsini genişləndirirdi; onları ali təhsilli mütəxəssislərlə təmin edirdi; saxlanmalarından ötrü dövlət büdcəsindən ayrılan məsrəfləri çoxaldırdı; Azərbaycan xalqının mənəvi dəyərlərinin qorunub-saxlanılması və inkişaf etdirilməsinə diqqəti artırırdı; Qurban və Ramazan kimi dini bayramlar keçirilirdi; Novruz bayramı Heydər Əliyevin hakimiyyəti illərində böyük təntənə ilə keçirilir, televiziya və radio ilə birbaşa translyasiya edilirdi.

Əvvəlki illərdə olduğu kimi, Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Sovetlər Birliyinin tərkibində olsa da, mərkəzi hökumət onu bir çox şeylərdən məhrum etmək istəsə də, milli kökdən gələn mənəviyyatını və dəyərlərini məhv edə bilmədi. Nəticədə Azərbaycan xalqının mədəniyyəti, elmi, təhsili, milli-mənəvi dəyərləri ümumbəşəri və ümumdünya dəyərləri ilə qarşılıqlı əlaqədə inkişaf etdi. Azərbaycan Sovet sistemi şəraitində milli, dünyəvi və qədim tarixə malik mədəniyyəti zənginləşən bir respublikaya çevrildi. Heydər Əliyevin tarixi-mədəni irsə xüsusi diqqət yetirməsi və mədəni-maarif müəssisələrini qurması nəticəsində xalqın özünə inam hissi artır, müstəqillik düşüncələri güclənirdi. Bütün bunlar heç şübhəsiz, Azərbaycanın gələcək müstəqilliyinin mənəvi təməllərinin qurulması istiqamətində böyük tarixi əhəmiyyət daşıyan mühüm fəaliyyətlər idi".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 19 oktyabr


## ABŞ alimləri insanın ürək xəstəliklərindən ölüm riskini müəyyən ediblər



Bir çox kliniki tədqiqatlar sağlamlıq vəziyyətinin dəyişikliyini proqnozlaşdırmağa imkan verir. Bir müddət öncə ABŞ-ın Cons Hopkins Universitetinin alimləri insanın ürək xəstəliklərindən ölüm riskini müəyyən ediblər. Nanonewsnet.ru saytı xəbər verir ki, tədqiqatların nəticələri "JAMA Cardiology və European Heart Journal"da dərc olunub. Hazırlanmış test yalnız insanı qəfil ölümün gözlədiyini xəbər vermir, həm də onun qarşısını almağa (məsələn, öncədən müalicəyə başlamaqla) imkan verir. Alimlərin araşdırmalarına görə, insanda mitoxondrial DNT-nin surəti nə qədər az olarsa, ürək xəstəliklərindən ölüm riski o qədər yüksək olur.

## Siqaretdən imtina etmək üsulları



Siqaret çəkmək çox zərərli vərdişlərdən biridir və onun törətdiyi xəstəliklərə görə hər il dünyada təxminən 5 milyon nəfər həyatını itirir. İldən-ilə onun qurbanlarının sayı artır. Siqaret çəkmək orqanizmdə 20 növ xərçəng xəstəliyinə və miokard infarktına səbəb olur. Təəssüf ki, bu zərərli vərdişdən yaxa qurtarmaq heç də asan olmur.

Siqaret çəkənlərin əksəriyyətini düşündürən bir sual var: qısa müddətdə və əziyyət çəkmədən ondan necə imtina etmək olar? Təbii ki, buna fərdi yanaşmaq lazımdır və onların hər birinə uyğun metod tətbiq olunmalıdır.

Zərərli vərdişdən yaxa qurtarmaq üçün müxtəlif üsullar təklif edilir. Məsələn, siqaret çəkmək istəyini boğmaq üçün kecəvər və ya atpıtrağının çeynənməsi qusma refleksi yaradır və növbəti dəfə siqaret çəkəndə ürəkbulanmaya səbəb olur. Siqaretdən imtina etmək üçün başqa üsullar da var.

Meşə gilasının budağı çeynənildən sonra siqaret çəkilməsi ağızda xoşagəlməz acı dad yaradır və siqaretə qarşı ikrah hissi əmələ gətirir.

Kecəvər kökü ilə istiotlu nanə yarpağı 1:2 nisbətində qarışdırılır, qarışıqdan 1 xörək qaşığı 1 stəkan qaynar suda 2 saat dəmlənilir. Hər dəfə siqaret həvəsi yarananda ağız boşluğu həmin dəmləmə ilə yaxalanır.

2 stəkan qaynar suya 100 qram yuyulmuş vələmir dəni tökülür, 4 saat dəmləniləndən sonra ocağa qoyulur və 1 saat dəmlənir, süzüləndən sonra zövqə görə şəkər əlavə edilir. Bişirmə gündə üç dəfə yeməkdən 1 saat əvvəl və ya sonra 100 ml içilir.

Hərəsindən 1 hissə xırdalanmış istiotlu nanə və su yoncası yarpaqları 2 hissə pişikotu kökləri ilə qarışdırılır, qarışıqdan 2-3 xörək qaşığı yarım litr suda 1 saat dəmlənir. Gündə 3 dəfə yeməkdən yarım saat əvvəl 1/2 stəkan qəbul edilir.

Hərəsindən 2 hissə qaraqınıq otu və istiotlu nanə yarpaqlarına 1 hissə qarağat yarpaqları qarışdırılır, 3 xörək qaşığı qarışıq yarım litr qaynar suda yarım saat dəmlənir və hər dəfə siqaret çəkmək istəyi yarananda ağız boşluğu dəmləmə ilə yaxalanır. Dəmləməni içmək də olar. Yarım litr 40 faizli spirtə 100 qram xırdalanmış vələmir cücərtisi əlavə edilib qaranlıq yerdə 7 gün dəmlənəndən sonra süzülür, gündə 3 dəfə yeməkdən 1 saat əvvəl 1 xörək qaşığı içilir.

100 qram moruq çiçəkləri üzərinə yarım litr 40 faizli spirt əlavə olunur, 10 gün dəmlənəndən sonra süzülür, gündə 3 dəfə 1 xörək qaşığı qəbul edilir.

## ELAN

ADPU-nun Təhsildə psixoloji xidmət ixtisası üzrə II kurs tələbəsi Xanverdiyev Röyal Nicad oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Neymar "Qızıl top" mükafatını qazansa, PSJ ona 3 milyon avro ödəyəcək




Braziliyalı hücumçu Neymarın PSJ futbol klubu ilə kontraktında nəzərdə tutulan bəzi bonuslar məlum olub. AZƏRTAC xəbər verir ki, əgər Braziliya yığmasının bu oyunçusu "Qızıl top" mükafatına layiq görülərsə, parislilər ona 3 milyon avro ödəyəcəklər. Bu məbləğ Neymarın bir aylıq məvacibinə ekvivalentdir. Neymarın bu məbləği ala bilməsi üçün o, PSJ ilə cari kontraktının qüvvədə olduğu hər hansı ildə həmin mükafata layiq görülməlidir.

## "Tottenhem"ə qarşı oyun Ronaldo üçün əlamətdar olub



"Real"ın futbolçusu Kriştiano Ronaldo üçün Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turunda "Tottenhem"ə qarşı oyun (1:1) əlamətdar olub. SİA-nın məlumatına görə, portuqaliyalı hücumçu bu görüşlə ÇL-də 143-cü matçına çıxıb. Bununla da o, "Real"ın sabiq üzvü Raulu (142 oyun) geridə qoyaraq ÇL tarixində ən çox oyun keçirən üçüncü futbolçu olub. Qeyd edək ki, bu göstəricidə ilk pillədə "Real"ın sabiq qapıçısı və hazırda "Portu"nun şərəfini qoruyan İker Kasilyas (166 oyun) qərarlaşıb. "Barselona"nın sabiq yarımmüdafiəçisi Xavi 151 matçla ikincidir.




## "Liverpul" klubu UEFA Çempionlar Liqasının rekordunu yeniləyib

İngiltərənin "Liverpul" klubu futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turunda səfərdə Sloveniyanın "Maribor" komandasına 7:0 hesabı ilə qalib gəlib. AZƏRTAC xəbər verir ki, İngiltərə təmsilçisi səfərdə rəqibin qapısından 7 cavabsız top keçirməklə turnirin rekordunu yeniləyib. Bu, həmçinin İngiltərə klublarının UEFA Çempionlar Liqasında (Çempionlar Kuboku) səfər qarşılaşmalarında qazandıqları ən böyük hesablı qələbədir. Qeyd edək ki, əvvəllər Çempionlar Liqasında səfər oyununda 7:0 hesablı qələbəni "Şaxtyor Donetsk" və "Marsel" komandaları qazanıblar. Donetsk təmsilçisi 2014-cü ildə BATE, "Marsel" isə 2010-cu ildə "Jilina" üzərində böyük hesablı qələbəyə sevinib.

## Şəhriyar Məmmədyarov Dünya İntellektual Oyunlarının reytinq-favoritidir

IMSA International Mind Sports Association

Dekabrın 8-dən 15-dək Xuayanda II İntellektual Oyunlar (IMSA) keçiriləcək. AZƏRTAC xəbər verir ki, şahmat turnirlərində 24 ən güclü şahmatçı iştirak edəcək. Onlardan 12-si qadın, 12-si kişi şahmatçıdır. Yarışların favoriti Şəhriyar Məmmədyarov, Aleksandr Qrişşuk (Rusiya) və Din Lijendir (Çin). Azərbaycanı bu yarışlarda, həmçinin Rauf Məmmədov təmsil edəcək. Qadın şahmatçılar arasında Anna Muzıçuk (Ukrayna) favoritdir. IMSA çərçivəsində sürətli şahmat üzrə (İsveçrə sistemi, 11 tur), blitsturnir (daimi sistem) və "bask sistemində" (İsveçrə sistemi) yarışlar keçiriləcək.

## Futbol üzrə Macarıstan millisinin baş məşqçisi istefaya göndərilib

Futbol üzrə Macarıstan millisinin baş məşqçisi Bernd Ştork istefaya göndərilib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, amniyalı mütəxəssisin istefaya göndərilməsinə səbəb komandanın dünya çempionatına vəsiqə qazana bilməməsi olub. Qeyd edək ki, 54 yaşlı mütəxəssis 2015-ci ildə Macarıstan yığmasına gətirilib və Bernd Ştorkun rəhbərliyi altında Macarıstan millisi "Avro-2016"nın səkkizdəbir final mərhələsinədək irəliləyib. Bu mərhələdə Macarıstan millisi Belçika yığmasına 0:4 hesabı ilə uduzaraq Avropa çempionatında mübarizəni dayandırıb.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500